**Muzafferus**

Müzəffər PAŞAZADƏ

# NAR DƏNƏLƏRİ



**Bakı · 2016**

Muzafferus

*Müzəffər Paşazadə*

**Nar dənələri**

Redaktor:
Novruzova Mənsurə

Korrektor:
Paşayev Paşa

Üz qabığındakı rəsm:
Nərmin Paşazadə

2016, 100 səh.
Tiraj: 150

Qiyməti: 5 manat

© Müzəffər PAŞAZADƏ, 2016

## Nar dənələri

Salam. Xoş gəldin mənim dünyama. Bir az əzab, bir az kədər, bir az sözlər, bir az fikirlər... Burda hər şey var. Sevgidən başqa.

Nar dənələri... Qırmızı dənələr... Sıxsan qırmızı maye axar. Yox, bu narın şirəsi deyil, qandır. Əsərlərimdə intihar edənlərin qanı və bir də şəhidlərimin qanı var. Qan qanla qarışıb. Onlar qardaş idi...

Buyur, keç içəri. Xoş gəldin mənim dünyama.

Bura yaşamaq üçün deyil. Nə də qısa müddətli istirahət üçün. Ən yaxşısı heç girmə bu dünyaya. Sən uzaqda qal. Bura yad qalsın, özgə olsun, uzaq düşsün...

Bura səssizliyin məzarlığıdır. Bura yazılarımın qəbirstanlığıdı. Baş daşım kağızlardır. Torpağım sözlər. Bəzi qəbirlərdə güllər açıb oxuyucuların xoş sözləri tək. Bəziləri isə tikanlı sarmaşıqlara bürünüb yazılarımı bəyənməyənlərin acı sözləri kimi.

Bir tapmaca vardır açması nar olan. Bax, ona bənzər mənim yazarlıq həvəsim, 3 ilim. "Aldım bir dənə, açdım min dənə."

Mən təkəm. Daxilimə baxsan, ucsuz-bucaqsız düşüncələr dünyası...

Nar dənələrim mənim. Onlar mənimdir.

## Baxdım uzaqlardan səmalara…

Mənim qaranlığımda Sənin aydınlığın yox olub! Axtarma özünü, yoxsan burada! Sən uzaqlarda, mən uzaqlarda. İçimdən bir səs mənə səsləndi: “aydınlıq var onu görə bilmək üçün." Dedim ki: “Qaranlıq var ondan gizlənmək üçün."

Kağızlara bürünmüşdü həqiqətlər, soyuq idi, üşüyürdülər, üzərlərini yalanlarla örtdüm.

Xəyallara dal bir dəfə, uzaqlara bax. Orda biri var, səni gözləyən… Bir gün bəlkə qovuşdum sənə, bəlkə də yox. Həyat… Olsan sevinərəm, olmasan “qismət”- deyib, keçərəm. Sanki azmı dedim? Çox şey itirdim, tam “qazandım” deyərkən. Ürəkdən istəsəm bir şeyləri, həmişə əlimdən uçub gedər uzaqlara. Mən də ardınca səmalara baxaram… Amma artıq yetər! Yoruldum! İtirməkdən… Uduzmaqdan… Yoruldum!

## Kədərin təbəssümü

Güldürmək? Gülmək istəməyən birini buna məcbur etmək doğru olmaz. Heç bu gecə gülmək üçün də deyil. Bu gecə kədərin gecəsidir. Biz gülməyəcəyik. Üzüntünün bizi necə sardığını görüb kədər gülümsəyəcək.

Hiss et! Bütün kədəri hiss et. Özünü gülməyə məcbur etmə. Bu an kədərə aiddi. Sinonim axtarmayacam bu sözə. Bizə sadəcə kədər lazımdır. K-Ə-D-Ə-R.

Və sən kədəri hiss et bütün varlığınla. Kədərə burax özünü. Bütün varlığını sarsın. Və bu sarsıntı səni zamanın pəncəsindən qoparsın. Bir boşluğa atsın.

Düşüncələrdən və fikirlərdən, gələcək və keçmişdən, xatirələrdən və arzulardan, yalanlardan və həqiqətlərdən, günahlardan və savablardan – bir sözlə, bütün hər şeydən xilas ol. Özünü kədərin ağuşuna burax.

Bax, sən artıq uçursan. Duyğularsız, zamansız və məkansız bir boşluqda. Boşluqdu, məkan

yoxdu, fəza boşluğu. Zaman yoxdu, sonsuzadək burda qalacaqsan. Və duyğular yoxdu, heçnə hiss etməyəcəksən, etmirsən.

Və düşün ki, bütün varlığınla o boşluğun içində kədərə təslim olmusan. Gözlərindəki ağrını hiss et, göz qapaqlarının ağırlığını. Beynindəki yorğunluğu hiss et, qat kəsilmiş qırışların ağrısını. Əllərini hiss et, barmaq uclarındakı iynələnməni. Ağrını hiss et! Kədər ağrıyla qarışsın...

Sonra ilk damla yuvarlanıb düşüncə yanağından, sən qurtuluşa qapı açdığını anla. Ardından qorxaqcasına ikinci damla axsın gözündən. 3, 4, 5, … Və birdən anla ki, artıq hönkür-hönkür ağlıyırsan. Ağla! Mənim də yerimə ağla. Ağla! Kədər bütün varlığıyla göz yaşına dönüşüb bədənindən uzaqlaşana qədər ağla. Xilas olana qədər ağla. Daha yüksək səslə, daha da ürəkdən. Dadını çıxararaq. Bütün varlığınla ağla. Gülərək ağla. Həzz alaraq ağla. Unutma ki, o an nə edirsənsə, onu bütün varlığınla et. Bu təbəssüm belə olsa, kədər belə olsa. Nə olur olsun.

## Varlıqla yoxluğun ayrılığı

Sanki qorxulu bir yuxu görürsən. Bədənin kilitlənir, ruh bir kənara qısılır. Simvollar göydə uçur. Var olanlar və bir də yox olanlar... Ayrılıq qanlı olsa, daha gözəl olar. Həsrət olmaz o zaman.

Səssiz bir gecə. Qaranlıq otaq. Küncdə, otağın bir küncündə, pəncərənin yanında çarpayı yerləşirdi. Dəmir çarpayıda, lay taxtanın üzərindəki döşəyə bürünmüş ağ üzlük. Həsrət qoxurdu. Səssizcə yuxulamağa çalışırdı çarpayıda uzanan gənc. Hər ayağı çarpayının bir küncünə yönəlmişdi. Üzərində qırışmış nazik örtük var idi.Sol əli qarnının üzərində bir az yana doğru dururdu. Sağ əli bükülmüş, ürəyinin üzərində idi. Ürək döyüntülərini dinləyirdi sanki. Amma əslində dinləmirdi, sinəsinin üzərindəki sağ əli ilə hiss edirdi döyüntüləri. Varlığını unutmuşdu. Göz qapaqları yumulu idi yorğunluqdan. Amma otaqda olub bitəni hiss edə bilirdi.

Cinmi? Ruhmu? Gözəgörünməz bir varlıq qadın vücuduna girmiş sanki. Yaxınlaşdı gəncə.

Öncə sağ, sonra sol üzündən öpdü. Oğlan təngənəfəs olmuşdu. Qadın zərif hərəkətlərlə dodaqlarını oğlanın alnına yaxınlaşdırdı. Yox, bacarmadı, öpə bilmədi. Həyatını, gələcəyini gəncin gələcəyinə qata bilmədi. Ayırdı. Hər şeyi bir-birindən ayırdı. Sonra özü ayrıldı. Yox oldu. Uzaqlara getdi. Çox uzaqlara. Həsrətlə qaldı gənc. Qadın vücuduna girmiş bu məxluq, varlıq idi bir zamanlar. Yoxluğa çevrilmişdi artıq. Gerisində tənhalıq, qorxu, kimsəsizlik, həsrət, ayrılıq və kədər qırıntıları qoyaraq. Eyni bir dünyanın insanları deyildilər. Oğlan varlıq idi, var idi. Qadın sadəcə ruhdan ibarət və artıq yox idi…

## Tərk edilən yer

İndi artıq ora sadəcə tərk edilmiş bir yerdi. Böyük bir boşluğu qucaqlamış bir yer. Artıq ordan səs gəlmir. Yoxdu heç kəs. Yoxdu qonağı. Bəzən külək bir neçə saralmış yarpağı gətirər ora. Bir neçə günlük izləsin boşluğunu deyə. Bəzən uzaqlardan gələn köhnə sakinlərdən biri darıxar, gələr. Baxar ora ağlamamaq üçün özünü güclə saxlayaraq. Yumar gözlərini, dalar xəyallara, xatırlayar keçmiş günləri. Gözləri yaşla dolar. Dözməz. Qaçar ordan, uzaqlaşar.

İndi artıq ora sadəcə tərk edilmiş yerdi. Böyük bir boşluğa sahib, kiçik bir keçmişə sahib... Yoxdu qonağı, yoxdu əvvəlki kimi gəlib gedəni. Yoxdu sevəni. Yox, var. Uzaqdadırlar. Xatırladıqca boğulurlar boşluğunda.

Artıq gəlmir ordan səs. Bağıran yoxdu. Sevinən yoxdu. Ağlayan yoxdu. Gülən yoxdu. Qorxan yoxdu. Həyəcanlanan yoxdu. Təəssüflənən yoxdu. Qərar verən yoxdu. Əmr edən yoxdu. Xahiş edən yoxdu. Seyr edən, baxan, görən, bilən

yoxdu. Orda artıq heç nə yoxdu. Bir boşluq, böyük bir boşluq var...

Müəllimdir. Çoxlarına sevinci kədərlə bir öyrətmişdi. Qələbə qazanıb susmağı öyrətmişdi. Hörməti, səbri öyrətmişdi. İnanmağı öyrətmişdi. Dürüstlüyü, gözəlliyi öyrətmişdi. Sevməyi öyrətmişdi. Bağlanmağı. Bir parçası olmağı öyrətmişdi.

Kiçik şəhərin böyük dünyası idi. Kiçik insanları vardı, böyük xəyalları... Kiçik bacarıqları var idi, böyük hədəfləri... Kiçik gücü var idi, böyük inancı... Amma indi sadəcə boşluğu var.

Saralmış otları, ağlı-qaralı oturacaqları... Ora sadəcə boş bir yer deyil. Milyonlarla sevincin, minlərlə xəyalın, yüzlərlə insanın öldüyü yerdir. Bəlkə indi cəhənnəmdir ora? Bəlkə də cənnət?!

Boşluq və toz var. Toz bürüyüb bütün hər yeri. Boşluq, qorxu, kədər bürüyüb hər yeri. O yer, o məkan, o hissə, o bölgə. Bəlkə də lənətlənib artıq?! Bəlkə müqəddəsdir?! Bəlkə də sadəcə boş bir torpaq... İndi artıq ora sadəcə tərk edilmiş bir yerdi...

## Dəyişdirə bilmədiyimiz həyat

Başlıqlar. Eynidi hamısı. Bir-birrindən heç də fərqlənmir, bizim hər günümüz kimi. Standart şəkildə davam edir. Etdiklərimiz artıq vərdiş halına çevrilib. Heç bir fərqlilik yoxdur. Sözlərimiz isə köhnəlib, yüz illərdi dəyişmədən qalır. Yenə də hamısı şikayətlərdir. Naşükürük. Heç nədən razı deyilik. Bəzən istəyirik ki, deyək "bu yaxşıdır", onun da zayı çıxır, yəni o da "yaxşılığını" itirir.

Bu gün də başlıqları eyni olan günlərdən biridir. Amma ilk dəfə olaraq bu gün dünənkindən çox ağlamaq, dünənkindən çox sevinmək istəyirəm. Bu gün içimi töküb, hər şeyi danışmaq istəyirəm. İndiyə qədər etmədiklərimi, ağla sığmayan bütün dəlilikləri etmək istəyirəm. Edəcəm də.

Birinci günə həmişəki kimi duyğusuz, həyatdan küsmüş şəkildə yox, gülərək başlayacam. Özümə güləcəm, indiyə qədər etdiklərimə güləcəm. Fikirləşəcəm ki, 2 yol var: biri bu standart həyatda eyni tonla sona qədər getmək; biri də

sınma nöqtəsi, yəni bir yerdə dayanıb, hər şeyi dəyişdirmək və tez-tez dəyişikliklər etmək. Mən ikinci yolu seçəcəm. Dəyişəcəm. Amma nəyi? Özümə çox yaxın bildiyim, əslində isə mənə çox uzaq olan yalançı dostlarımı dəyişəcəm. Tək dostum özüm olacam. Sonra vərdişlərimi dəyişəcəm. Əvvəlcə yaddaşlardakı Müzəffəri dəyişəcəm. Hamı məni çox danışan biri kimi tanıyıb. Artıq susacam. Heç nədən danışmayacam.

Sonra isə sıra qorxularıma gəlir. Qorxularım... Yaxınlarını itirmək qorxusu, ölüm qorxusu... Yaxınlarımı itirməkdən qorxmayacam. Çünki onlar mənə yaxın olsalar da, hələ də yaşasalar da, mən onların çoxunu itirmişəm. İtirərək də gedirəm. Ölüm qorxusu... Ölməkdən qorxuram, ona görə qorxuram ki, mənim də bir hədəfim, məqsədim, etmək istədiklərim, arzularım var. Və yolun yarısında, işlərimi yarımçıq qoyub ölməkdən qorxuram. Artıq qorxmayacam. Çünki hədəflərimi, məqsədlərimi, arzularımı, etmək istədiyim hər şeyi siləcəm və yaşamağımın mənası qalmayacaq. Həyatım maraqsızlaşacaq. Sonra isə yeni bir məqsədim olacaq. Üsyan və azadlıq. Üsyan qaldıraraq azadlığı yaradacam. Bunun üçün birinci qanunları pozacam. Mənə qoyulan bütün

qanunların üstündən bir xətt çəkəcəm. Bu qanunlar mənim qarşımda duran böyük bir səddir. Bu səddi aşacam. Sonra isə üsyan qaldıracam. Azadlıq üçün ölümdən qorxmayaraq ölümün üstünə gedəcəm. Amma yenə də azad olmayacam. Çünki sona yaxın öz-özümü tək qoyub gedəcəm və hər şey bir anda puç olacaq.

Etdiklərimin hamısının nəticəsi nə olacaq? Məqsədimə çatacam? Yox, heç nə əldə etməyəcəm. Nəticəsi də olmayacaq. Sonda isə yenə də köhnə həyatıma, "eyniliklərə" qayıdacam. Beləcə həyatım zamanla bərabər axıb gedəcək.

## Tapdım...

Axtarışlar... İnsan ömrü boyu nə isə yeni bir şeyin aştarışındadır. Doğulduğu gündən ölənə qədər... Axtarır... Bəzən yeni şeyləri yox, var olan mövhumatların axtarışında olur. Xoşbəxtlik kimi, Azadlıq kimi. Mənim kimi.

Mən də axtarışındayam xoşbəxtliyin. İllərlə insanların başlarına gələn faciələri gördükcə, göz yaşı axdıqca, xoşbəxtliyin əlçatmaz olduğuna daha çox inanmağa başlayırdım. Gündən-günə mənfi hadisələrin təsiri müsbət emosiyaları dağıdıb məhv etdikcə, ürəyimdə yaranan sıxıntı məni daha çox xoşbəxtlik axtarışlarına çıxmağa vadar edirdi. Qərara aldım ki, "necə xoşbəxt ola bilərəm?" sualına cavab tapım. Düşüncələrimin və fikirlərimin daxilində keçirdiyim günlərim nəticəsiz qalmadı. Tapdım. Və öyrəndim ki, xoşbəxtlik gülüşümüzdə və sevgi hissində gizlidir. Və bununla da xoşbəxtliyə gedən yolu tapmışdım. Yolun sonunda xoşbəxtliyə çatacaqdım. Amma bu belə deyildi. Elə ilk addımımı atanda yeni bir həqiqətlə qarşılaşdım. Xoşbəxtliyə gedən yolda yeni bir şey öyrəndim. Və artıq bilirəm ki,

xoşbəxtlik yolun sonunda deyil, yolun üzərindədir!!!

Növbəti axtarış isə azadlıq idi. Bu haqda qısa danışacam. Axtardım... Axtardım və tapdım ki, bizim azadlıq dedikdə ağlımıza gələn ilk şey əslində azadlığın özü yox, tərs üzüymüş. Qanunsuzluq və haqsızlıq imiş. Buna biz xarici azadlıq desək, doğru olan üz "tərsin tərsi " – daxili azadlıqdır. Yəni əvvəlcə daxilən azad olmalısan. Bunun yolunu tapmalısan.

Axtarın, tapacaqsınız.

Döyün, açacaqlar.

İstəyin, verəcəklər. (İncil)

## Dalğavari həyat

## *(universitetə hazırlaşan abituriyentlər üçün...)*

Nöqtələr... Başlanğıc və sonluq simvolu. Birləşərək düz xətt əmələ gətirər. Düz bir xətt heç bir məna ifadə edə bilməz. Yazını oxuya bilmək üçün xəttin enmələri və qalxmaları olmalıdır. **Həyat da düz bir xəttdən ibarət deyildir...**

Və ilk nöqtəylə həyata başlayırsınız. Yeni bir oyun başlayır. Bilik oyunu. Birinci sinif... Həyat xəttiniz titrəməyə başlayır. Bir az qorxu, bir az həyəcan. Kiçik enişlər və qalxışlar. Yavaş-yavaş böyüyürsünüz. Siz böyüdükcə enişlər daha dərin, qalxışlar daha hündür və aralarındakı məsafə daha da böyük olur. Həyatın gözəlliyi də budur...

Həyat xəttiniz doqquzuncu sinif şəhadətnamə imtahanından sonra necə qalxmışdısa onuncu sinifdəki tənbəlliyiniz ucbatından elə də enir. Attestat imtahanının sınağından güclə də olsa keçməyin sevinci və əsas imtahanın iki fənnə endirilməsi xəbərinin verdiyi əhval-ruhiyyə yüksəkliyi nəticəsində həyat xəttiniz yeni bir qalxış edir.

Və növbədə on birinci sinfin sınaq imtahanları, aşağı bal, evdə söz-söhbət, “oxumursan” damğası, müəllimlər tənbəl olduğunu deyir, problemlər, mübahisələr, dərslərin yorğunluğu, tapşırıqların çoxluğu, stress... və “bacarmadım”-deyib, məğlubiyyətinizlə barışırsınız... **"Sonuncu ölən ümidlərdir"**- deyiblər. İçinizdə yenə də bir ümid olur. Və o an sadəcə bir dəfə güzgünün qarşısına keçib özünüzə deyin: **“bacararam!”** Bütün enişlərin ardından qalxış üçün sizə bu söz kifayət edəcək. **Nə də olsa hər eniş yeni bir qalxış üçün təkandır!**

Bir arzunuz var: universitetə qəbul olmaq. Unutmayın, **yaşamağı mümkün edən tək şey arzuların mümkünlüyüdür.** Ona görə də **arzularınızdan heç vaxt əl çəkməyin!**

Bəzən qarşınıza çətin rəqiblər çıxacaq. Özünüzü oyundaymış kimi aparın. Onsuzda bilik oyunundasınız. Qarşınızdakını şah sayın, özünüzü isə piyada. Hər bir nəticəyə hazır olun. Amma unutmayın: qəbul imtahanı oyunun bitdiyi gündür. Və **oyun bitdikdə şah da piyadayla eyni qutuya girir...**

Dalğavari həyatda universitetə qəbul olaraq ən böyük qalxışınızı etməyiniz ümidiylə... Uğurlar!

## Bilinməzlikdən bezmiş insan

Göydə uçuşan kağızlar kölgələrlə yarışır...

Bir nəfəs dər dərindən, həyatın qaranlığına bax uzaqdan. Görməyi bacaracaqsanmı? Bilmirəm, amma çətindir yaşamaq. Məni, yazdıqlarımı anlamaq. Qorxulu yuxuların bir parçası olmaq istəmirəm. Nə də istəmirəm yazdıqlarım “anlaşılmaz, boş, mənasız sözlər” adıyla damğalanıb bir kənara atılsın. İstəmirəm, millətim yavaş-yavaş əriyib yoxa çıxsın. Həqiqətlərlə dolu dünyanın yalanları kimi nə qədər yaşamalıyıq?! Cavab tapanda anlayacaqsan yaşamağının mənasını.

Nə yazdığımı bilmirəm. Susmuşam. Sadəcə qələmim kağızın üzərində rəqs edir.Sətirlərim naməlumluqla dolur. Heç kəs bəyənmədi, heç kəs oxumadı, bükülüb bir qırağa atıldı. Bəyənmirsənsə, istəmirəm, oxuma bir daha (!), canın sağ olsun... Dərdimdən danışmaq istəmirəm. Nə də sizi yormaq. Oxumaq istəmirəm öz yazdıqlarımı özüm belə. Anlamırlar sözlərimi, heç istəmirəmdə (!), anlamasınlar...

Bəsdi artıq tabe olduq başqalarına! Bir dəfə də cəsarətimizi toplayıb düzgün addım ataq. Bəsdi artıq istəklərimizə tabe olduq. Biz nəfsimizin qulu deyilik! Yorma özünü, anlamayacaqsan. Yorma özünü!

Bilmirəm, hansı dalğaların əsiri olmuşam. Bilmirəm, küləklə hansı istiqamətə üz tutmuşam. Xəyalpərəstlikmi? Dəlilikmi? Qəribəlikmi? Yoxsa, acizlikmi? Nə deyim bunun adına? Məni bürüyən bu hissə, bu istəyə? NƏ DEYİM?

Yazmaq istərdim həqiqətlərdən. – Yox, sus, olmaz! Gərək heç kəs bilməsin.

Yazmaq istərdim yalanlardan. –Yox, sus, olmaz! Yalanlarınla insanları yorma.

Bilmirəm. Bilmirəm nə edim, nə deyim? Yaşamaq üçün bəhanə axtarmağa ehtiyac yoxdu, ölmək üçün də. Həyat öz axışıyla davam edir. Hər şeyin öz sırası var...

Səbrsizlik. Bilinməzlik. Yorğunluq. Boğazımdan tutub məni boğur. Həyatın qəddarlığıyla dolub-daşan sətirlərin sətraltılarında qalıb sıxılmaq arzusu yox içimdə. Nə də bilinməzliklə sizi boğmaq istəmirəm. Bezmişəm, amma yazmaq

istəyirəm. Bilinməzliklərlə dolu bu insandan. Heç kəsin anlamadığı birindən...

Qaranlıqmı yordu məni? Səssizlikmi? Yoxsa sənsizlikmi? Bəlkə üçü də birlikdə?! Axır ki, nə isə bir şey mənə qarşıdı. Sətirlərimə qarşı. Söz-lərimə qarşı. Düşməndi mənə. Amma elə bilirlər ki, ilk düşmənim onlardı. Xəbərləri yoxdu ki, mənim ilk düşmənim özüməm. Səbəbini də bilmədən...

Kaş intaharın nə qədər böyük bir günah olduğunu bilməsəydim... Bəlkə onda hər şey daha fərqli olardı. Daha qısa.Daha mənalı. Belə bilin-məzliklə yox.

## Şahmat oyunum

Sərin… Küləkli hava… Qarşımda özümə bənzətdiyim tənha dəniz… Suyun səsi… Qayalıqlara çırpılan dalğalar… Səssizcə yaxınlaşdım. Qayalıqda idim tək. Ətrafım sadəcə qayalıq. Aşağı isə dəniz idi. Səssizlik… Buna tənhalıq deməzdim. Mən və dəniz…

Dəniz… O da yalnızmış mənim kimi… Başını qatmaq üçün özünə bu oyunu qurubmuş – dalğaları… Həyat… Bu oyunu əslində biz oynamışıq. Həyat oyununda oyunçu olaraq… Qalibiyyət, ya da məğlubiyyət… Tək səhvimiz anlamamaq imiş. Oyun bitdikdə şah da, piyada da eyni qutuya qoyulur.

Dənizdən gələn sərin külək üzümə çırpıldıqca xəyallardan ayrıldım. Dərindən nəfəs aldım. Dənizi, küləyi hiss etdim. Baxdım. İrəliyə baxdım… Görmə bucağımın daxilindəki, uzaqlardakı, dənizlə göyün birləşdiyi yerə baxdım. Bəzən mümkünsüz olan şeylər mümkün olarmış… İnanmırdım. Amma sonuncu dəfə, sonuncu dəfə heç gözləmədiyim bir qələbə bunu mənə inandırdı.

Qələbəyə heç bir ümidim, inamım yox idi. Və "məğlub olacam" düşüncəsilə, ümidsizliklə, inamsızlıqla başladım və düşündüyüm kimi də məğlub oldum. Amma bir şey heç ummadığım kimi oldu. Nəticə… Özümə inanmırdım, qalibiyyətə inanmırdım. Amma nəticə heç gözləmədiyim kimi oldu. Biraz əvvəl düşündüyüm kimi. ŞAHLA PİYADA eyni qutuya qoyuldu…

Və bunlar bir debat sonrası hisslərimdi. Məğlub olduq və turu keçə bilmədik. Amma turu keçə bilənlərlə heç bir fərqimiz yoxdu. Ümumi debatda belədi: məğlub yoxdu! HƏR KƏS QALİBDİR… Karl Popper belə deyib: "Mən haqlı ola bilərəm, sən də haqlı ola bilərsən, amma biz bir yerdə daha HAQLIYIQ!"

## Təklik, tənhalıq və kimsəsizlik

Murad həyatı heç sevmirdi. Yaşamaq istəmirdi. Bezmişdi bütün həyatdan. Ətrafında o qədər insan var idi ki, özünü daha çox tənha hiss edirdi. Hər gün səhər evdən çıxar, dərsi yola verdikdən sonra ya boş-boş küçələrdə gəzər, ya da gedib dəniz sahilində üfüqə, uzaqlara saatlarla baxardı. Axşam olanda yatmaq üçün evə gedərdi. Səhəri gün yenə... Heç dərs oxumurdu. Dostu yox idi, insanlarla əlaqə qurmağı xoşlamırdı. Evdəkilərlə belə, tək-tük halda dialoqa girərdi. Valideyinləri də laqeyd yanaşırdılar Murada. Öyrəşmişdilər bu vəziyyətə. Hər kəs halından razı idi. Ətrafında çoxlu insan olmasına baxmayaraq Murad tənha idi...

Fariz işləmək üçün beş il idi ki, öz kəndlərindən uzaqda olan bir şəhərə köçmüşdü. Orada yaşayırdı, təkbaşına. Evlənməmişdi. Sadəcə işi ilə başını qatır, vaxt keçirirdi. Kütləyə daxil olmurdu. Qohumları, tanışları, dostları, ailəsi – hamısı 5 il öncə geridə qoyduğu, tərk etdiyi kənddə idi. Təkliyi dadmışdı. Öyrəşmişdi. Həyatından razı idi.

Kamran yaşlı idi. Qocalar evində ona yaxşı baxırdılar. Amma yenə də üzü gülmürdü. Sevinc, gülüş, xoşbəxtlik və bunun kimi bir çox duyğuları 10 il öncə baş vermiş qəzada itirmişdi. İtirmişdi o qəzayla oğlunu, gəlnini, nəvələrini... Yoldaşı 20 il idi dünyasını dəyişmişdi. Geridə qalanları da itirdikdən sonra artıq kimsəsiz qalmışdı. Hər günü kədərli, hər günü qəmli. Kimsəsiz... Amma artıq öyrəşmişdi həyatına. Səssizcə ölümü gözləyirdi. Xatirələrlə yaşayırdı, keçmişlə. Onun üçün "bu gün" anlayışı önəmli deyildi. "Gələcək" isə sadəcə boş idi. Çünki o, kimsəsiz idi.

Əslində insanlar həqiqətən belədir. Bəziləri insanların yanında tənhadır. Bəziləri insanlardan uzaqda təkdir. Bəziləri insanlardan yoxsun, kimsəsizdir…

# İntihar edək mi?

Salam. Necəsən? Yəqin ki, çox pis. Əhval-ruhiyyən, kefin, yaşamaq istəyi, həyat eşqi – hamısı birdən ən bərbad vəziyyətdə, yerlə yeksan. Gözəl. Əgər belə isə, onda yazımı sona qədər oxu. Əks təqdirdə işimə yaramırsan.

Hə, deməli belə. Hər şey pis idi, çox gözəl, xariqülada. Hər dəfə olduğu kimi bu səfər də əzablar, ağrılar... hamısı baş qaldırıb. Başa düşürəm. Ən azından başa düşməyə çalışıram. Mən də o gündəyəm. İçimdə böyük bir sevinc var. Bu gün sənlə bərabər bu işi bitirəcəyik. Və hər şey əla olacaq. Psixoloji vəziyyətimizin gərgin olduğu zaman heç düşünmək belə istəmədiyimiz valideynlərimiz, qohumlarımız, tanışlarımız, sevdiklərimiz - bir sözlə, hər kəs ağlayacaq ardımızdan. Onları ağlatmaq nə qədər də gözəldir... Sizi bu yola sürükləyənlər vicdan əzabı çəkəcək. Sizə çəkdirdikləri əzablardan qat-qat çox, artıqlaması ilə. Əla! Öldükdən sonra kaş onların göz yaşlarını da görmək, fəryadlarını eşitmək, vicdan əzablarını hiss etmək mümkün olaydı... O zaman tam məqsədə çatmış olardıq. Onsuzda nə də olsa

başqalarına etdiklərinin cəzasını verməkdi istəyiniz. Axı biz "GÜNAHSIZ"kən bu qədər əzab çəkdirmişdilər. Hələ azdı bu onlara. Geridə bir məktub buraxaq, bir-bir adlarını yazaq və əlavə edək ki, sizlərin ucbatından bunu etməyə məcbur idim. Belə onlara daha ağır olar. Gözəl! Başqa nə edə bələrik ki, cəzaları ağır olsun? Özümüzü elə bir vəziyyətə salaq ki, intihardan sonra meyidimizi görənlər dəhşətə gəlsin. Əla olar. Nə də olsa tək fikrimiz başqalarına əzab çəkdirməkdi. Hə, fövqəladə bir fikir gəldi ağlıma. Qayalıqdan aşağı atsaq özümüzü parça-parça olarıq. Meyidimizi görənlərin əzabı iki qat artar. Nə edəcəyimizi bilirik. Getdik.

Addım-addım yaxınlaşıram...

Sən bu yazını oxuyarkən, mən qayalıqdan aşağıda parça-parça olmuş meyidimlə sağollaşıram. Geriyə baxıram. Əla! Tam istədiyim kimi. İndi qoy hamı əzab çəksin. Hamısı - günahı olan da, günahsız da. Qurunun yanında yaş da yanar. Elə bəlkə biz də buna görə indiyə kimi bu qədər əzab çəkdik?! Yaş olduq, amma quruyla birgə yandıq. Niyə günahı başqalarının üstünə atırıq? Bəlkə elə günah bizdədir ki, qurunun yanındayıq.

Yox, yox. Qətiyyən! Biz də heç günah olmaz axı. Biz süddən çıxmış ağ qaşığıq. Amma xatırladım ki, dahi şəxslərdən biri belə bir cümlə işlətmişdi, "süddən çıxan ağ qaşığa yox, südün üzərində qoyduğu qara izlərə bax." Yox, bizimlə nə əlaqəsi ola bilər ki? Bizim heç səhvimiz yoxdur, qara ləkəmiz yoxdur. Bizdən yoxdu ey, bir dənəyik. Söhbətin məğzindən kənara çıxmayım. İntihar etdiyim üçün çox xoşbəxtəm. Yaxşı ki, bu yolu seçdim. Sizə də məsləhət görürəm, cənab "ağ qaşıq".

Bəlkə intihar edək? Geriyə baxmadan. Ataq özümüzü qayalıqdan aşağı və ya qatarın altına. Asaq özümüzü tavandan iplərlə. Kəsək damarlarımızı, qanımızla boyayaq can verən bədənimizi. Sonuncu əzabımızı çəkək, sonsuz əzabdan xəbərsiz...

Dayan görək hələ. Deməli belə. İndi çox "xoşbəxtəm". İntihar etdim. Cəhənnəmdəyəm. Bura çox "gözəl"di. İsti... Alovlu... Yanıram! Ağlıma bir şey gəldi. Mənim fikrimcə, inancsız olan bəlkə də cəhənnəm qorxusundan, hara gedəcəyini bildiyindən, bunu inkar edərək yaşama tutunmağa çalışır.

Əslində heç kim intihar edənin hansı psixologiyada olduğunu tam şəkildə dərk edə bilməz. Bu elə bir vəziyyətdir ki, hər kəsi unudub canına qəsd edə bilərsən. Bir anlıq sevdiklərin belə beynində bir kənara atılmış olar. Bir anlıq unudarsan hər şeyi. İntihar edən elə bir vəziyyətdədir ki, səbəb, bəhanə, çarə, səhv, düz... - heç birini düşünməz o anlıq. Əslində intihar qorxaqların yox cəsarətlilərin, güclülərin işidir. Çünki hər adam bunu bacarmaz, cəsarəti çatmaz! İntihar edənə zəif gözüylə baxmayın, onlar çox güclüdürlər. Həqiqətən. Amma bir şey mənə maraqlıdır. Əgər bu qədər güclü idilərsə, niyə yaşayıb onları intihara sürükləyən səbəblərə sinə gərməkdənsə, ən asanı seçdilər?!

## Hədəf ulduzu

Həə.. Bu səfər, bu əsərimizin qəhrəmanı kiçik bir uşaq idi. Balaca qəhrəmanımızın üç yaşı var. Bu gecə onu tanıyacağıq. Al yanaqları tez-tez qızarır, saralırdı. Gülərkən dodaqlarını bir azca aralayar, ön dişləri görünərdi. Bir-ikisi yox idi. Süd dişlərindən bəziləri düşmüşdü. Dağda, bağda çox oynayırdı, tez-tez yıxılırdı kiçik qəhrəmanımız. Bəlkə də bu idi səbəb. Hə. O gözəl uşağın yaşıl gözləri var. Parıldayırdı, gözlərinin içi parıldayırdı daima. Sevincinin həddi-hüdudu yox idi. Hər gün saatlarla ora-bura qaçar, hoppanıb-düşər, sevinər, gülər – bir sözlə, öz uşaqlıq həyatını yaşayardı. Və məncə də bacarır.

Bu gecə bizim qəhrəmanımız öz çarpayısında oturmuşdu. Yatağı pəncərənin önündə olduğundan, gözləri səmaya dikilmişdi. Uzaqda, çox uzaqda parlayan kiçik bir ulduza baxırdı. Hava biraz dumanlı idi. Bir Ay görünürdü, bir də bu ulduz. Qəhrəmanımız bu ulduza o qədər diqqətlə baxırdı ki… Sanki ulduz gözlərində parıldayırdı. Kiçik uşaq gülümsəyirdi ulduza baxa-baxa. Sanki ondan güc alırdı, xoşbəxt olurdu…

Və birdən çox uzaqlarda, başqa diyarlarda, başqa şəhərlərdə, başqa küçələrdə, başqa evlərdə, başqa pəncərələr qarşısında siz səmaya baxırsınız. Yox, hiss edirəm. Baxmasanız belə, baxmaq istəyirsiniz. Baxın, baxın. Səmaya baxın. Varsa orda bir ulduz da siz seçin. Və deməli, indi də qəhrəmanımız siz oldunuz. Təbrik edirəm. Xeyirli, uğurlu olsun. Hə, qəhrəman. Ola bilər, indi sən düşünürsən ki “axı mən kiçik uşaq deyiləm”, bilirəm. Amma kiçik uşaqsan sən və ən əsası sənin içində gizlənmiş olan. Bax, o kiçikdi. İndi o sənin ruhunu ələ keçirəcək, sonra sənin gözlərin vasityəsiylə az öncə seçdiyin ulduza baxacaq. Təsadüfə bax, yaşıl gözlü uşaqla eyni ulduza baxırsanmış... Çox gözəl. O zaman sıra səndə. Əvvəlcə yum gözünü, bütün varlığını unut, hər şeyi unut, keçmişə qayıt, o gülərüz uşaq ol, kiçik bir uşaq. Bax ulduza, güc, enerji al, sən də gül, gülümsə, təbəssüm üzündən əksik olmasın. Çünki əslində sən də bir qəhrəmansan. Amma heç kəs bilmir, sus, demə! Tezdi! Hələ bilməyəcəklər. Amma sən indi bu yazını oxuyub qurtaran kimi, bilirəm özünə bir hədəf qoyacaqsan, onu bir kağıza yazıb gizlədəcəksən, kiçik bir uşaq kimi, sonra dərindən nəfəs alıb ulduzuna baxacaqsan. O

sənin ulduzun olacaq, hədəf ulduzun. Hədəfinə çatdıracaq səni. Gülümsə, dərindən nəfəs al. Və budur, qəhrəmanlığını isbat etməyin vaxtı gəlib çatdı. Və sonda inanıram ki, sən qəhrəman olandan sonra bunu böyük bir insanın yox, məhz içindəki balacanın qəhrəmanlığı adlandıracaqsan. Kiçiyin qələbəsi, indidən uğurlu olsun. Çünki sən və ruhunun dərinliklərində gizlətmiş olduğun balaca, ikiniz də buna- qələbəyə, qəhrəmanlığa LAYİQSİNİZ! Və bacaracaqsınız, çünki tək deyilsiniz, 2 nəfərsiniz. Haydi. Hədəfinizə gedəcəyiniz yolda uğur sizinlə olsun, bəxtiniz dostunuz olsun. Unutmayın, içinizdə kiçik bir qəhrəman var, onu yaşadın, varlığını hiss edin, onunla bərabər olun, siz onu tək qoymayın ki, özünüz tək qalmayasınız. Haydi, getdik!

## Səssiz külək

Gözlərimi açdım. Qayalığın ən dibində idim. Nədənsə heç bir yerim ağrımırdı, qan və ya başqa bir yara izi də yox idi üzərimdə. Enerjiliyəm. Təxminən yarım saata çıxaram yuxarı. Və başladım qalxmağa.

Qayalıqlar yuxarı qalxmaq üçün əla normada idi. Sanki pilləkən sistemi. Rahat-rahat qalxırdım. Az qaldı çatıram. İndidən burnuma yemək qoxusu gəlməyə başladı. Gözəl. Elə aclığım da var idi.

Yuxarı çatmamışdan belə bir şey deyim. Həyat da elə əslində qayalıqlar kimidi. İlk səhvində ən dibə yuvarlanarsan. Çox canın yanar. Qalxmaq üçün daha çox vaxt lazım olar. Amma yenə də həyat qayalıqlarını elə qurar ki, qalxmağın, ən təpəyə dırmaşmağın mümkün olsun. Səni aşağı atdığı üçün günahını yumaq və ya ikinci bir şans vermək məqsədiylə yox, yenidən səni qayalıqlara atmaq üçün edər bütün yardımlarını.

Axır ki, çatdım yuxarı. Gördüyüm mənzərə məni çox sevindirdi. Hamınız orada idiniz. Sözümü tutmaq üçün mənə yardım edirdiniz. Piknik

“Elə tam vaxtında gəlmişəm”- deyərək, cumdum yeməyə. Bədənin qidası yeməkdir. Bunu baza adlandıra bilərik. Amma bundan başqa qidalanması gərəkən üç şey daha vardır bizdə: beyin, ruh, qəlb. Beynimizə yeni məlumatlar daddıraraq qidaya olan təlabatını ödəyə bilərik, həmçinin sevgiylə də qəlbimizi. Bəs ruhumuz? Ruhun qidasını tapmamışam. Deyilənə görə bu bir az dini məsələdi. Ona görə də qarışmıram. Amma ruh da önəmlidi. Maraqlıdı, yemək qoxusunu alandan, başqa heç nə fikirləşməyib süfrəyə cummuşdum. İndi fikir verirəm, hamınız burdaymışsınız ki. Çox gözəl. Yəqin ki, maraqlı vaxt keçirirsiniz. Əla yerdi ha bura. Meşəlikdən 20-30 metr kənar. Otdur hər yan. Təmiz hava... Ətrafda dəniz... Aşağıda, qayalıqlara çırpınan suyun səsi... Qəşəng bir yerdə istirahət edirik.

Gözümə birdən SƏN sataşdın. Kənarda oturmuşdun. Yanına yaxınlaşıb əyləşdim. Gözlərin yaşlı idi. Məni gördüyünə sevinməmişdin mi? Olsun. Amma niyə ağlayırsan? Nə olsun ki dörd aya yaxındı yoxam?! İndi ki burdayam. Amma hiss edirəm, hər şey dəyişib. Təəssüf olsun ki, hər şey əvvəlki kimi olmayacaq artıq.. İndi cismim sağdı, ruhum ki yaralı..

Xəyaldaykən xəyal qurmaq necə bir hissdi? Sanki səhradayam. Cismim yoxdu. Ruhum... Ruhumsa yaralıdı. Susuzluqdan və aclıqdan əziyyət çəkirəm sanki. Tənhalıq və bir də isti hava. Yorğunluq var idi üzərimdə. Səssiz külək əsirdi. Həm də quru, isti. Ruhum qucaqladı sanki küləyi, uzaqlara getdi. Səssiz-səssiz...

## O dəlidir

Bir tanış adam var. Təxminən 2 il öncə rastlaşmışıq. Məndən 6-7 yaş böyükdür. Mənə qarşı olan əməlləriylə həyatıma daxil olan ən yaxşı insanlardan biridir. Çox istədiyim və hörmət etdiyim biri. VII-VIII siniflərdə kitabla olan tanışlığımın ardından IX-X siniflərdə oxuyarkən kitaba olan uzaqlığıma baxmayaraq, sonrakı dövrdə yenidən və çox güclü şəkildə kitabı mənə sevdirən biri. Söhbət bədii kitablardan gedir.

O insan. Sadəcə fərqli biri. Və sevməyənlərin vurduğu “dəli” damğası. "O, dəlidir" - dedilər. Məni də bu səbəbdən ondan uzaq tutmağa çalışırlar. Amma bacarmayacaqlar…

"O, dəlidir" - dedilər, çünki o, əlinə pul keçdikcə bədii kitablar alır. Evində 300 kitablıq kiçik şəxsi kitabxanası var. "O, dəlidir" - dedilər, çünki o, ətrafındakı insanlara kitabı sevdirməyə çalışır, oxumaqları üçün maraq dairələrinə uyğun və faydalı kitablar tapıb verir öz kiçik kitabxanasından. "O, dəlidir" - dedilər, çünki o, bacardığı qədər öz bildiklərini, biliyini ehtiyacı olanlara

çatdırır, mənə, mənim kimi bir neçə nəfərə əlindən gələn qədər tədris etdiyi bir fənni öyrədir və burada heç bir maddi maraq güdmür. "O, dəlidir" - dedilər, çünki o, kiçik bir birliyin üzvüdür və burada onlar imkansızlara ərzaq yardımı edir, uşaqlara dərs qabağı lazımı əşyalar çatdırırlar…

Onun da səhvləri var, onun da yanlışları, əksikləri, mənfi xüsüsiyyətləri var. Onun da problemləri, dərdləri var. Amma nə edir etsin, o, mənim ideallarımdan biridir. Həyatım boyu unutmayacağım biri. Onun həyatımdakı önəmi bir başqa…

Nədənsə insanlar özlərindən fərqli olanları, başqa cür düşünənləri dəli adlandırırlar. Elədirsə əgər, nə bəxtəvərdir dəlilər. Əgər dəlilik belə bir mövhumatdırsa, mən də dəli olmaq istərdim…

## Xoşbəxtliyin yeri

Salam. Xoş gördük səni, bədbəxt insan. Necəsən? Bu yazının əvvəlcə adını oxumusandır. Və yazını oxuyursansa, deməli sən də axtarırsan xoşbəxtliyi, xoşbəxtliyin yerini. Kiçik bir sirri sənlə bölüşəcəm indi. Hazır ol, diqqətlə oxu. Xoşbəxtliyi istəyirsən, o zaman hər şeyi unut. Ruhən uzaqlaş bu dünyadan. Çünki bu dünyada xoşbəxtlik yoxdu. Xoşbəxtlik bədən üçün deyil, ruh üçündür. Bu kainat üçün deyildir xoşbəxtlik, yoxdur buralarda. Ruhən uzaqlaş başqa kainata və dad xoşbəxtliyi.

Hər bir insan bir aləmdir demişlər. Əslində cismimiz bir aləmdir, ruhumuz başqa bir aləm. Bax əvvəl bunu öyrənməlisən. Cismimizin hakim olduğu bu dünyada xoşbəxtlik deyilən bir şey yoxdur... Əslində etiraf etmək gərəkirsə, kiçik bir hissə vardır, kölgəsi vardır. Niyəmi? Cismə bərk-bərk yapışmış insan bu kölgəni görsün və onun əslini axtarsın deyə, əllərini buraxsın bu cisimdən, qucaqlasın ruhu, dalsın mənəvi aləmə, ruhunun dünyasına, əsl xoşbəxtlik məkanına. Bax xoşbəxtliyin yeri oradır.

İşıq – günəş, yaradır bir varlığın kölgəsini. Əgər bu qədər cisimsiz, məcaz olan bir şeyin - xoşbəxtliyin, kölgəsini belə yansıdacaq bir nur varsa, ona tərəf qaçmaq, qanadlanıb uçmaq gərək...

***

Qatar, o ironik səs və hərəkət, öz yerində səssizcə əyləşmiş sərnişin, pəncərəyə düşən yağış damlaları, batan günəş şüaları, yan küpələrdən gələn səs-küy, ortada qaçışan kiçik uşaqlar... Bir qədər sonra sərnişin artıq bu səs-küyü dinləmirdi, səssizliyi dinləyirdi. Dalmışdı mənəvi aləminə, getmişdi uzaqlara, cismindən uzaqlaşmışdı. Artıq ruhun mənəviyyatında, başqa aləmdə idi. Uzaqlarda. Xoşbəxtliyin ağuşuna doğru...

## Gəl birlikdə uçaq

Gəl birlikdə uçaq. Eşqin dadına bir baxaq, eşq uçmaq kimi bir şeydir...

"Uçmaq nədir bəs?"- deyə soruşacaqsan...

Gəl birlikdə uçaq, uçmağın bir dadına bax, anlayacaqsan. Yum gözlərini. Unut bütün hər şeyi. Unut, zehnini boşalt. Bütün bildiklərini boşalt. Səni bir yerə aparacam. Sadəcə oranı bil, gör, hiss et... Çay axır, eşidirsən? Şırıltı səsi, suyun səsi... Ayaqlarım üşüyür, hiss edirəm. Deyəsən çayın içinə girmişik, dizimizə qədər su olub ayaqlarımız.

Aç gözlərini və mənzərəni seyr et. Çayın ortasındayıq, sən və mən. Amma bu adi bir çay deyil, dağ çayıdır. Şəlalə var burada. Və Şəlalə tam iyirmi metr qabağımızdadır... Şəlalənin aşağısı sanki böyük bir göldü, nə daş var, nə qaya. Dərinlik... Bura yaxın bir kənd var, kəndin cavan oğlanları və bəzi ürəkli qızları gəlib buradan aşağı tullanar, aşağıdakı gölməçəyə. Super bir adrenalindir bu. Şəlalə çox böyükdü. Yuxarı çıxmaq 2 saat vaxt alır deyə, bir gün ərzində 2

dəfə aşağı tullanan böyük qəhrəmanlıq etmiş sayılır kənd uşaqları arasında.

Kənardan baxsan, bu hadisəyə şəlalədən aşağı tullanmaq kimi anlaya bilərsən. Əslində isə bu tamam fərqlidir. Burdan tullanmırlar, burdan o tərəfə uçurlar... Necəmi? Tut əlimdən getdik...

Çayın üzərində qaça-qaça irəliyə gedirik və Şəlalədən aşağı tullanırıq, yox-yox... Uçuruq... Sanki buludları yararaq... Sanki aşağı yox, yuxarı, səmaya tərəf uçuruq... Bütün bədənini bir quş kimi yüngül hiss edirsən... İçində böyük bir coşqu, sevinc, xəyalının reallaşması xoşbəxtliyi var. Və əlbəttə ki, bir az qorxu. Aşağıda başına nə gələcək qorxusu. İndiyə qədər burdan tullananların, yox ey, uçanların heç birinə heç bir xəsarət dəyməyib, hamı sapsağlamdır. Amma yenə də qorxarsan.. Uçmaq.. Gözünün qarşısındakı bu mənzərənin yarımçıq kəsilməsindən qorxarsan, yarı yolda yüksək təzyiqdən və ya başqa səbəblərdən macəranın yarımçıq qalmasından qorxarsan. Amma nə qədər qorxsan da içində böyük bir sevinc var, qəlbində bir istilik yaranır, sanki Antarktidanın buzlarını əridəcəkmiş kimi... İçində böyük bir xoşbəxtlik var, arzunu, xəyal-

larını reallaşdırmış biri kimi... Azadlıq var, səmada süzürsən bir quş kimi...

Sözü çox uzatmayacam. Hər kəsə sevdiyi insanla əl-ələ o şəlalədən tullanmaq qismət olsun. Tullanmaq yox, uçmaq. Uçmaq da eşqdir. Uçun, yəni, sevin!

## Bir səhifəlik qızıl gül ətri

Saçlarına sığal çəkən külək vardı. Bir də skamyada əyləşmiş gənc bir qız. Sevdiyi gələcəkdi birazdan. Yenə həmişəki kimi bir qədər gecikmişdi. Ehtiyatlıydı gənc aşiq, kitab götürmüşdü özü ilə, sevgilisini gözləyənədək oxumaq üçün. Nazik barmaqlarıyla tumar çəkdi əlindəki şeir kitabına. Vərəqlədi, oxumağa başladı, ordan-burdan, bir-iki şeir.

Öyrəşmək nədir? Alışmaq, qəbul etmək, razı olmaq. Qəlbinin dərinliyindən axan bir çay. Yox, bu bağlılıq deyil. Bağlanmazsan. Bağlanmaz qəlb qapıları. Açıqdır, azaddır. İstədiyin an qanadlana bilərsən. Amma çayı izləmək daha gözəldir. Öyrəşmisəndir. Öyrəşmək bağlanmaqdan fərqlidir. Bağlanmaq, bağlandığının varlığına məhkum olmaqdır. Öyrəşməksə onun ritmini duymaq, anlamaq, qəbul etməkdir.

Dodaqlar üzünə toxunarkən, xoş bir diksinti keçirib, sevgilisinə tərəf döndü. Gözəl bir təbəssüm bəzəmişdi üzünü. Oğlan gəlib yanında əyləşdi. Əlindəki qızıl gülü sevgilisinə uzatdı.

Xoş bir ətirlə sehirlənmiş "təşəkkürlər" kəliməsi qızın dodaqlarından oğlanın qulaqlarına tərəf qanadlandı. Səssizcə gülü kitabın arasına qoydu. Öz varlığındakı sonsuzluğa yadigar saxlamaq üçün.

Qorumaq, gizlətmək nədir ki? Yaşatmaq istəyi, saxlamaq, sahiblənmək, sonsuzlaşdırmaq. Hə,hə, sonsuzlaşdırmaq. Nədənsə ən çox can atılan şeydir sonlu dünyada, sonsuz dünyada sonsuzluğa varmaq. Nə qədər qəribə bir paradoks olsa da, bir o qədər də mərkəz olub. İstək olub, arzu olub, ümid olub. Gerçək sonsuzluq unudulub, sonlu sonsuzluq önəmli olub.

Qızılgül bütün ətriylə gizləndi təsadüfi açılmış iki səhifə arasında. Qız bu gülü sevgiylə, ümidlə qoymuşdu ora. Hardan bilə bilərdi ki, üç il sonra bu gülü gizlətdiyi yerdən aşkara çıxarıb, sevdiyinin qəbrinə qoyacaq?! Basdıracaq torpağına, gizlədəcək orada. Bir sonsuz həvəs tək... Hardan bilərdi ki, sonu belə olacaq qızılgülün?! Kitabını ətirlə bürüyən o qızıl gül, indi sevgilisinin qəbrində gizlənib, ruhunu bürüyəcəkdi xoş ətri ilə. Qucaqlayacaq...

Bir gün ümidlə verilmiş qızılgül, həsrətlə geri qaytarılacaqdı. Bir gün geriyə sadəcə bir səhifəlik qızılgül ətri qalacaqdı...

## Oyanın!

Yaxşı, razıyam. Mən qorxağam, amma açığı siz də qorxaqsız. Bəli, mən ölmüşəm, mənim duyğularım yoxdu, axı sizin də duyğularınız yoxdu. Özünüzə gəlin! Özünüzə gəlin! Oyanın!

Oyanın! Günəş çıxmaq üzrə, bəlkə də çıxıb. Oyanın! Təbəssüm vaxtıdı. Qorxmaq vaxtıdı. Tək olduğumuzu hiss etmək vaxtıdı. Təklikdən qorxmaq vaxtıdı. Gülümsəmək lazımdı həm də. Qorxaqlığımıza gülmək. Sonra dayanmaq. Ağlamaq. Hə indi ağlamaq vaxtıdı. Ağlayın, doyunca ağlayın! Və ya, ağlayan birini gördünüzmü, susun, boş yerə danışmayın. Kəlimələrin əvəzinə qucaqlayın, qoyun doyunca ağlasın. Qucaqlayın, mehriban olun, kədərlənin. Qorxun! Sonra gülümsəyin. Gülümsəyin, təbəssüm olsun üzünüzdə, gülüşünüzün səsi ağlayanın üzünə sığal çəkib, göz yaşlarını silsin yanaqlarından. Sonra utanın, qızarsın yanaqlarınız. Gülün! Sonra sizə gülənlərə nifrət edin. Əsəbləşin! Nifrət edin, sonra sevin! Sevin, sevginizi göstərin! Özünüzə gəlin! Gizlətməyin! İnanın! İnanın və sonra sizə inanalara yalan danışın. Aldadın! Xəyanət edin! Sonra

üzülün, yalvarın! Sonra bağışlayın, səmimiyyət göstərin, qucaqlayın!

Sevin, nifrət edin, bağışlayın, yalan danışın, qorxun, gülümsəyin. Amma artıq duyğulanın. Boş durmayın! Nəsə bir şey edin! Gizlətməyin! Duyğulanın! Duyğular qəlbdəndir. Duyğulanın! Qəlbinizə enin, çünki hər şey oradadır. Lütfən, duyğulanın! Oyanın!

## İki kəliməlik həyatlar

Mürəkkəb kağıza aşiq, qələmə küskün, fikirlərə dost. İndi bir yazı düşün, dilin dosta deyə bilmədiyi, qəlbin qorxub gizlətdiyi.

Qaranlıq bir otaq düşün,ağ pərdələr küləklə rəqs edərkən, kölgəsi qaranlıqda bölünsün.

Təsəvvür et ki, boş səhradasan. Qum dənəciyisən. Nədir dəyərin, önəmin? Heç...

Fikirləş gələcəyini. İndi kağız da qaradı mürəkkəb də. Bir naməlumluq...

Küçəyə duman çökmüşdü erkəndən. Tüstü dumana qarışdı. Soyuq vardı. Xəstə canıyla çölə çıxdı. Könlündən üşümək keçirdi sadəcə Rəşadın. Saatlarla gəzdi, doyunca üşüdü. Qocalıq çağında uşaqlıq edirdi. Bəlkə düşünmək istəyirdi? Görünməyən,qaranlıq gələcəyini düşünmək... Boşluğu fikirləşmək...Tapmaq... Amma yox, bu qaranlığa gözləri tab gətirməz.

Fikrini yayındırmaq üçün keçmişə qayıtdı. İllər ərzində nə etdiyinə baxdı. Varlığını sübut

etməyə çalışdı. Amma yenə də boşluq. Zaman çayında boğulub axıb gedib...

Geridə nə qaldı? Nə unudulmaz oldu? Onca illərin sonu nə oldu? Nə? Niyə?

Boğuldu, üşüdü.

Qoca gözlərində tənhalıq qalmışdı geridə qoyduğu illərdən kiçik bir iz olaraq. Bütün hər şey keçmişdə qalmışdı. Gəlib keçmişdi. Amma bir heçmiş. O heçliklər ortaq keçmişdə qaldı, gələcəyi olmayan birinin keçmişində.

Üç kəliməlik həyatdı bizimkisi... Doğuluruq, yaşayırıq, ölürük.

Bəs yaşamaq nədir?

Əgər sevməksə, alovlanıb yanmaqsa... Əgər geridə bir iz qoymaqsa... Əgər var olduğunu sübut etməksə...

O zaman yaşamadıq biz. Həyatımız oldu iki kəliməmiz...

Biz iki kəliməlik həyatlarıq: doğuluruq, ölürük.

## Fərqli bir oyun

Bütün daşlar yerinə oturardu bir-bir. Amma oyun hələ indi başlayırdı. Məğlubiyyətlə bitəcək digər oyunlar kimi təhlükəli, qələbəylə bitəcək ilk zəfər kimi öncədən təbəssümə boğan bir oyun. Sonu nə olur olsun. Xoşbəxtlik yolun sonunda deyil, üzərindədir. Ümidlə parıldayan iki cüt göz. Həyəcanla titrəyən əllər. Burada iki rəqib yoxdu. Onlar anlamalıdırlar ki, əsl rəqibləri oyundan kənarda olanlardır. Onlar anlamalıdırlar ki, əsl qələbə meydandakı rəqibinə qalib gəlməklə yox, onun tərəfində olmaqla qazanıla bilər. Bu oyun digər oyunlar kimi deyil. Bu ümumiyyətlə oyun deyil. Ciddilik. Səmimiyyət. Dürüstlük. Hörmət.

Bir oyun düşün. Fərqli bir oyun. Burada rəqib kimi görünən iki tərəf var. Bu meydandan kənardakıların qələbəsi üçün zəmin yaratmaq məqsədilədir. Bir oyun düşün. "Oyun" adlandırılaraq iştirakçıların duyğularını acizləşdirmək niyyəti güdülür.

Bu bir sevgi oyunudur. İki qəlbə kiçik sevgi toxumcuqları səpilməsiylə başlar. Ya çətinliklərə təslim olmaqla məğlubiyyəti seçib, toxumcuqları susuz, günəşsiz və torpaqsız qoyarlar. Bəzən sadəcə birinin əksikliyi belə toxumu məhv etməyə kifayətdir. Burada hər şey tam, qarşılıqlı olmalıdır. Ya da problemlərə sinə gərib elə ilk dəqiqədən qələbəni yaşamaqla, verilmiş müqəddəs hədiyyəni görməklə, hiss etməklə qələbəyə çatarlar. Nəticə etibari ilə toxumları yetişdirib, budaqların bir-birilərinə qarışmasını gözləmək lazımdır. Qələbə gəldiyi an hər şey bitmir. Qələbə o deməkdirki, yetişmiş ağacların kölgəsində oturmaq vaxtıdır. Xoşbəxtliyi yaşamaq vaxtıdır.

Xoşbəxtlik yolun sonunda deyil, üzərindədir. Qələbə yolun sonuna çatmaq deyil, yolu tapmaqdır. Bu yol sonsuz bir yoldur. Yolu tapmaq: iki tumurcuğun yetişib ağac olması, budaqlarının bir-birinə qarışmasıdır. Bu qələbədir. Yolda irəliləmək, artıq xoşbəxtliyi yaşamaqdır, artıq müqəddəs və sonsuz bərabərlikdir. Yolu yarım qayıtmaq isə, verilmiş xoşbəxtliyi görməyib yolun sonunda ummaq, yolun sonsuz olduğunu anlayıb təslim olmaq, həqiqətlərdən imtina etməkdir.

Öncə bir oyun oynanılır, fərqli bir oyun. Rəqiblərin əslində eyni tərəfdə olduqlarını anlamaları üçün. İlk sınaqdır, çətin sınaqdır. Qələbəsi sonsuz bir yolun aşkara çıxmasıdır. Ardından tapılan müqəddəs xəzinənin parıltısı gözlərini qamaşdırarar bu iki oyunçunun. Sonra isə bu yolda yerimək gəlir, bərabərcəsinə.

Təbəssüm kiçik bir hədiyyədir əslində. Gözlərdəki gülüş möcüzədir sanki.

Oyunu ciddiyə almaq, rəqiblə səmimi olmaq, hər zaman dürüst davranmaq, həqiqətlərə hörmət etmək ümidi ilə... Uğurlar!

## Bu gecə yuxuma qar yağacaq...

Xəstə yatağında keçirtdiyi ayların sayını itirmişdi səkkiz yaşlı uşaq. Hələ həyat onun üçün indi başlamırdımı? Bəlkə həyat budu elə: xəstələr və onları ziyarət edən yaxınları, bir də xəyallarındakı uzaq şəhərlər. Bütün dünya bundan ibarətdi? "Dünya" deyə adlandırdıqları gördükləri və xəyal edə bildikləridirmi sadəcə? Uşaq idi, bu haqda heç düşünmürdü. Gözlərindəki solğunluqdan həyata qarşı olan küskünlüyü hiss olunurdu.

İki il əvvəl... Hələ təzə-təzə ətrafı anlamağa başlayırdı. Hələ də xatırlayır, pəncərənin qarşısında oturub həyətdə qaçışan yaşıdlarına baxırdı. Atasının işdən gəlməyini gözləyirdi. Bərabər həyətə düşəcəkdilər. Qar yağırdı. Atasıyla birgə qarla oynayacaqdı. Ərdəbilə hər deyəndə qar yağmır. Bəlkə çox az, gec-gec yağdığından bu qədər sevilirdi? Həyat da belə deyilmi? Nəyin ömrü azdırsa, daha çox sevilər...

Həkim gəlib həb və bir stəkan su verdi sağalmayacağını bildiyi xəstə uşağa. Anası daxil oldu otağa, üzünü sığallayıb öpdü övladının. İllər

öncə saçlarını tumarladığı şirin balasının... Köks ötürdü, qalxıb pəncərəni açdı. Otağa soyuq dekabr havası daxil oldu. Dərin nəfəs alıb, pəncərəni bağladı. Niyə açdığını heç özü də bilmirdi. Bəlkə də gözlərinin yaşardığını xəstə oğlunun görməsini istəmirdi...

Xəstəlik nədir? Müəyyən bir virusa yoluxmaq? Sadəcə viruslarmı xəstəlikdi? Bəlkə elə gülmək də xəstəlikdi, ağlamaq da? Bəli, sevmək də xəstəlikdi, nifrət etmək də. Xəstəliklər fərqlidir. Hisslər fərqlidir. Hamı xəstəliyə yoluxmur. Hər kəs fərqli-fərqli xəstəlikləri daşıyır.

Bir dəfə atası onu Təbrizə aparmışdı. Şah Gölündə katerə minmişdilər. Çox sevmişdi Təbrizi. Bir günlük səyahətindən bəri tez-tez yuxusunda görürdü Təbrizi. Eyni küçələri, xatırlaya bildiyi binaları... Ola bilsin ki, eyni yuxu idi, təkrar-təkrar görürdü.

Bəlkə dünya təkrarlardan ibarətdir elə. İki cür insanlar doğulur, təkrar-təkrar. Bir qismi xəstə olub ömrünü xəstəxanada çürütmək üçün, digər qismi xəstə yaxınlarını ziyarət etmək üçün. Həyat davam edir. Sırayla insanlar xəstələnir. Yaxınları onları ziyarət edir. Xəstələr ölür. Sonra başqaları

xəstələnir, yaxınları onları ziyarət edir. Təkrar-təkrar eyni hadisə davam edir. Fəqət, bəzən xəstələr sağalır, uzun illər yaşayır. O zaman da sağalanlar ikinci növ insanlara çevrilir, xəstə yaxınlarını ziyarət edir.

Atası işdən tez gəlmişdi qar yağan gün. Qalın paltarlarını geyinib, şərflərini boğazlarına keçirtmişdilər. Əlcəklər əllərində, papaqlar başlarında qarla oynamaq üçün tam hazır idilər. Uşaqlıq tələskənlikdi, necə ki, böyüməyə tələsirik. Pilləkənlərdən düşərkən yıxılmış, başını bərk çırpmışdı betona, huşunu itirmişdi. Həmin gün xəstəxanada beyin xərçəngi olduğu məlum olmuşdu. Ölüm sanki başqalarına aiddi, biz sonsuz ömür sürəcəyikmiş kimi. Artıq o da başqalaşmışdı, çünki bir gün öləcəkdi...

Ölüm nədir? Ölüm virusdur bəlkə hər kəsin bədənində anadangəlmə var olan. Bir-birindən fərqlənən milyardlarla qar dənəciyi kimi. Bəlkə ölüm xəstəlikdir, sağalmayan xəstəlik. Bəs biri ölərkən nə deyirik? "Dünyasını dəyişdi." Başqa bir dünyanın varlığına inancımızdanmı qaynaqlanır bu ifadə? "Gözlərini əbədi olaraq yumdu." Yoxsa bir heçlik, sonsuz yoxluğamı inanırıq?

Anasını səslədi balaca uşaq, söz deyəcəkdi. Anası yaxınlaşdı ona, sığalladı üzünü övladının. Pıçıltıyla və uşaqcasına şirin bir səs tonuyla dilləndi: -Anacan, heç kimə demə, bu gecə yuxuma qar yağacaq...

Həmin gecə Təbrizə qar yağdı.. Amma uşaq nə Təbrizi görə bildi, nə də ki yuxusuna qar yağdığını. Çünki yuxu görmədən dünyasını dəyişmişdi, gözlərini əbədiyyətəcən yummuşdu...

## Bumeranq

Külək nifrətlə əsir, yarpaqlar cəsarətlə uçuşurdu. İnsanlar qaçışır və ya fikir burulğanında boğulurdu. Qığılcım ayrılırdı yeni yandırılmış közdən. Başqa bir yerdə mürəkkəb kağızın üzərində rəqs edirdi. Həyat çox gözəl və bir o qədər də bərbad.

Və birdən zaman durdu. Artıq küləyin səsi gəlmir, yarpaq havadan asılı qalıb. Zaman sadəcə bir andan ibarət. Bu an. Bu saniyə. Bir xətt üzərindəki kiçik bir nöqtə.

Elə bu an Təbrizin sərin havasında gənc bir oğlan oturub. Şah Gölünü izləyir. Sanki qarşısında su deyil, kədər var. Boğulduğunu hiss edir. Əslində tikinti şirkətində işləyirdi. Aylar öncə yeni bir layihə başlanılmış, binanın ilk təməlləri atılmışdı. İki ay idi maaşları verilmirdi. Və dünən layihə rəhbəri yığılan bütün pulları götürüb ölkədən qaçmışdı heç kimin xəbəri olmadan. Yüzlərlə insan oyuncaq kimi istifadə edilmiş, indi bir kənarda qalmışdı. Gölün sərin havasını ciyərlərinə çəkən bu gənc də onlardan biri idi.

Bəlkə də layihə rəhbəri deyildi günahkar. İllər əvvəl oğurladığı pulların əvəzi idi bunlar...

Bax bu an Tiflisin qaranlıq küçələrinin birində bir taksi sürücüsü var. Hansı ki, aylardı əziyyətlə işləyib pul yığır. Ailəsini güclə dolandırır, hətta yeməyindən kəsib bir miqdar pul saxlayırdı ki, oğlunu müalicə etdirsin. Yarpaqların göydə donub qaldığı an iki nəfər sürücünü taksidən düşürüb, zorla əlindən bütün pullarını alıb, tək gəlir mənbəyi olan taksisini oğurlayıb qaçırdılar. Bəlkə də günahkar o iki gənc deyildi, elə taksi sürücüsünün özü idi, illər əvvəl bu maşını oğurladığı üçün bu gün günahının cəzasını çəkirdi...

Zaman dediyimiz şeyin bu kiçik parçasında Trabzonda qocalar evinə yenicə gətirilib, tərk edilmiş bir ata var. Gözlərindəki kədər, üzündəki yaş, qırış əlləri... Bütün varlığıyla anlayırdı illərdi əziyyət çəkib oğlu üçün işlədikdən sonra qocalan kimi buraya - qocalar evinə, özü kimi istifadə müddəti keçmişlərin yanına atılıb getməsinin əvəzi çıxılacaqdı səbəbkarından. Oğlu öz günahının cəzasını nə zamansa çəkəcəkdi. Bəlkə günahkar oğlu yox, elə özü idi?! Öz günahının cəzasını

çəkirdi. Axı o da illər əvvəl öz atasını qocalar evinə yola salmışdı...

Və elə bu an bir nəfər belə bir yazı oxuyurdu: "insanlardan istifadə edib zibilliyə atmayın. Gün gələr siz də istifadə edilib zibilliyə atılarsız", "hər günah öz dərin izini buraxır, vaxtı gələndə yerindən qan çıxartmaq üçün". "İnsanlar oyuncağa çevrilir. Amma xatırlamırlar ki, onlar da nə zamansa başqalarını oyuncağa çevirmişdilər"

Və günahlar bumeranq kimidi, əvvəl-axır geri qayıdır...

## Tık-tık

Oyun. Oyun düşün. Zaman oyunu. Bizsə oyuncaqlar. Zaman oyununun qurbanları. Zaman bizə oyun oynayır. Necə?

Zaman özü öz varlığını üç yerə bölüb. Göz yaşı ilə doldurduğu keçmiş. Bir əl olub oyuncaqları sürüyüb aparan bu an. Bir də naməlumlarla dolu gələcək. Bütün bunlar həyat adlanır.

Yox. Əslində keçmiş xoş xatirələrlə dolub daşır. Bu günümüz deyə adlandırdığımız indiki davam edici zaman isə öz təbəssümüylə bizə gülüş qatır. Bir də gözəl xəyallarla və ümidlərlə dolu gələcək.

İkili oyun oynayır. Kiçik bir uşağa şokolad verib, sora üstünü batırdığı üçün döymək qədər mənasız bir peşəyə sahib. Amma bəlkə də tam əksidir? İyli soğanı alıb, gözəl qoxulu alma verir. Hə, bir də mürəkkəblik var. Və bu ən gözəli və həmçinin ən dəhşətlisidir. Oyun. Oyuncaq. Bax burda gözəl bir taktika var. Oyuncağını özü seçir zaman, amma özü oynamır, bu gözəl əməli başqa

birinə tapşırır, hansı ki, o da növbədəki oyuncaqdı.

Qulağıma gəlir qəribə səs. Bu saat əqrəbinin qorxu və sevinci bir arada gətirdiyi səsdir? Bəlkə bu qəlbimin ümidi və kədəri bir anda yaşamasının isbat səsidir?

Göz yaşı var, yanağından sürüşüb düşəcək torpağa bir-bir. Ya da düşür damarı kəsilmiş bir dəlinin ovucunu sonuncu dəfə öpən qan damlası. Necə də gözəl görünür göz yaşı ilə qan torpaq üzərində. Torpağın altında nə var bəs?

Yağış, yağ! Yağ ki, bütün keçmişim, oyuncaq olmuş ruhum sənə qarışıb torpağın altında gizlənsin. Onlara uzun illər həsrət qalım. Yağ ki, təmizlənsin bu günüm, sabaha pak çıxım. Təbəssüm yarana bilsin aciz üzümdə. Yağ ki, bu oyuna sən də qurban olasan. Bir dövrün kiçik parçası olasan. Yağ ki, sən də torpağa qovuşasan. Və bir gün mən də qovuşacam. Bəlkə oyun məğlublarının gedişi buna görə kədərlidir? Günahlarına qovuşacağını bilirik deyə.

Hey, günəş çıxır. Yeni bir sabah açılır. Pəncərəmə döyəcləyən yağış məni səsləyir. Oyanmaq

vaxtıdır. Keçmişdən qurtulmaq, gələcəyi unutmaq. Sonsuzluq qədər uzun anın içinə sığışmaq lazımdır. Kədəri və sevinci unutmaq. Saymaq lazımdır. Sonsuz natural ədədlər sıraya düzülüb. Bir-bir, ağır addımlarla. Eyni səs gəlir qulağıma...

## Onun…

Qorxuları... Niyə də yox olmasın?! Axı “bismillah” deyərək sığınacağı yaradanı var. Nə qədər günahkar olsa da...

Arzuları... Niyə də reallaşmasın?! Axı bu mümkündür. Nə qədər surreal görünsə də...

Zəhməti... Niyə də xeyirli olmasın?! Axı arxasında alın təri var. Nə qədər ümidsiz olsa da...

Hədəfləri... Niyə də böyük olmasın?! Axı onlara çata biləcək gücü var. Nə qədər zəif olsa da...

Duaları... Niyə də qəbul olmasın?! Axı onu eşidən Yaradanı var. O, nə qədər uzaq olsa da...

Bağırtıları... Niyə də eşidilməsin?! Axı səsi hər yerə çatar. Nə qədər səssiz olsa da...

Azadlığı... Niyə də ona verilməsin?! Axı buna haqqı var. Nə qədər haqsız olsa da...

Səhvləri... Niyə də azalmasın?! Axı bunlara heç ehtiyacı yoxdur. Nə qədər çox olsa da...

Düzləri... Niyə də artmasın?! Axı bunu bacarar. Nə qədər bacarıqsız olsa da...

Amma deyəsən unudub ki, Yaradanın ehtiyacı olmasa da, Tanrıya şükür borcu var. Həm də ödəyə bilməyəcəyi qədər…

## Günəşin kölgəsi olmur

Xəyallar aləmimizə yəqin ki, hamımız güvənirik. Onda gəlin mən danışım, sizsə xayallarınızda canlandırın.

Ağ oboy və üzərində qara naxışlarla bəzədilmiş bir otaqdayam. Otaqda bir neçə əşya var. Divardan asılmış çox böyük bir güzgü, fıstıq ağacından hazırlanmış qəribə bəzəkləri olan masa, masanın üzərində içərisi qırmızı və göy maye ilə dolu olan iki stəkan... Əvvəlcə güzgüdə özümə baxdım. "Hər insan bir dünyadır" düşüncəsi beynimdə fırlanmağa başladı. Keçdim masanın arxasına. Öncə qırmızı maye ilə dolu olan stəkanı götürdüm. Yavaş-yavaş addımlayaraq güzgünün önünə qayıtdım. Stəkanın üzərində "məni iç" yazılmışdı. Qırmızı mayeni içdim. Yavaş-yavaş gözümün qarşısındakı hər şey parçalanmağa başladı. Güzgüdəki əksim artıq mənə oxşamırdı. Mən sanki parçalanaraq, bir dünya olmuşdum. Qarşımda bir yox, bir neçə insan durmuşdu. Hamısı da mənə oxşayırdı. Sanki mən dörd hissəyə parçalanmışdım. Birincisində elm, ikincisində din və sevgi, üçüncüsündə azadlıq və

sonuncusunda isə məni mən edən duyğularım formalaşmışdı. Qarşımdakıların hamısı elə özüməm.

Mən Müzəffərəm – hər kəsin tanıdığı, sakit, çalışqan, elmli biri. Həm də qorxaq, cəsarətsiz, həyatdan küsmüş, pessimist biri.

Mən Fəridəm – sevgi dolu xoşbəxtliyin sinonimi, arzularının reallığına inanıb həyata iki əlli tutunan və sevinclə yaşayan biri. Həm də dininə bağlı olub hər şeyə dini baxımdan yanaşmağa çalışan biri.

Mən Azadam – azadlıq həvəskarı, optimist fikirlər və müsbət düşüncələr məskəninə çevrilmiş bir beynin sahibi. Həm də səhvlərim üzümə vurulduqda cəld bir şəkildə müdafiəyə keçməyi və əks-hücuma atılmağı xoşlayan biri.

Mən MAP-am – rep həvəskarı, fəlsəfi romanlar yazmaq həvəsiylə yaşayan və ədəbiyyata bağlı kiçik bir yazıçı olan biri.

Mən mənəm – hər parçamda bir dünya, bütünlükdə bir insan...

Güzgüdəkilər mənə həm çox tanış, həm də çox uzaq gəlirdi...

Keçib masanın üzərindəki mavi maye ilə dolu olan stəkanı götürdüm. Onun da üzərində "məni iç" yazılmışdı. İçdim. Sanki indi bütüb parçalar yerinə oturub birləşirdi. Güzgüdə gördüklərim sanki bir dünyanın parçalarıymış kimi birləşirdilər.

Xəyallar aləmindən ayrılmaq vaxtıdı. Sənin müşahidənlə mən özümü parçaladım. Bəs sən? Sən heç özünü parçalamışdınmı? Vaxt itirmə, elə indi xəyallar aləminə qayıt. Qırmızı maye ilə dolu olan istəkanı iç. Özünü fərdlərə böl, dəyərləndir. Hərəsinə bir ad ver. Və hansı yaxşı deyilsə, içindən at. Yerinə yenisini gətir. Sonra mavi maye ilə dolu olan stəkanı iç, parçalar yerinə qayıtsın. Yenidən özünə bax. Bayaq gördüklərin elə sən özünsən. Özün özünə hakim ol! Duyğularını, hisslərini özün idarə et! Unutma, gülüşü sən yaratsan kədərin olmaz. Nə də olsa, ***günəşin kölgəsi olmur...***

## Sonsuz əzab

Zaman yavaş-yavaş axıb gedir. Yavaş sürətiylə belə, bəzən səssiz küləklər əsir, bəzən fırtınalar qoparır. İnsanlar həyat kağızındakı cümlələr, küləksə kağızları bükərək uçurumdan aşağı yuvarlandırır.

Gənc səssizcə otaqda oturmuşdu. Səssizliyi pozan sadəcə göz yaşlarının azadlıq fəryadı idi. Səssizlik, tənhalıq, qaranlıq... Gənc bunları çox sevirdi. Bunlar gənci sakitləşdirməkdənsə, əzab verirdi. Bəlkə də elə əzab çəkdiyi üçün qaranlıq, tənhalıq və səssizlik içində yaşamağı xoşlayırdı. Keçmişdə işlədiyi günahlar, etdiyi səhvlərə görə həm Tanrı onu cəzalandırırdı, həm də özü özünə əzab verirdi. Həm bu əzabdan qurtulmaq istəyir, həm də əzab çəkmək istəyirdi.

Dəyərini itirmişdi sözlər, dəyərini itirmişdi cümlələr, dəyərini itirmişdi gənc...

Ailəsi yanındaydı, amma “yox”muşa bərabər. Hər gün qırğın, hər gün söz-söhbət, hər gün mübahisə. Hər səhvində: “əlindən onsuzda heç nə gəlmir” - deyilərək, üzünə vurulan sözlər...

Dostları yanındaydı, amma olmasalar daha yaxşı... Hər işdə özlərindən uzaqlaşdırdıqları, hər fürsətdə söz ataraq alçaltdıqları, hər gün artıqlığının, lazımsızlığının isbatı... Və sevgisi. Xoşbəxtlik üçün döydüyü son qapı. Amma orada da xoşbəxtliyi tapa bilməməsi. Sevgi sadəcə əzab verirdi...

Əzablara bürünmüş qaranlığın içində oturmuş gənc, səssizliyi sadəcə əzablarının iniltisinin pozduğunu hiss etdi. Saatlarla fikirləşdi. Qurtuluş yolu axtardı. Tapdığı isə sadəcə bir həqiqət vardı: Tanrı onu əzab çəkməyi üçün yaratmışdı...

Bilmirdi, damarlarınımı kəssin, özünümü assın, dənizdəmi boğulsun, yoxsa binadan atsın? Bilmirdi hansını seçsin. Və bilirdi, hansını seçirsə seçsin, nəticə eyni idi. İntiharın cəzası, cəhənnəm əzabı...

Bütün əzablara son qoymaq ümidiylə kəsdi damarlarını. Son nəfəsinə qədər bağırdı. Bütün hüceyrələrinə qədər işləmiş əzab qanına qarışıb bədənindən çıxana qədər bağırdı. Son nəfəsini verdi...

Əzablardan qurtulacağını düşünən bu gəncin xəbəri yox, intiharın cəzası sonsuz cəhənnəm əzabıdır. Əzablardan qurtulmaq üçün intihar etmişdi. Amma xəbəri yox, sonsuz əzab indi başlayırdı.

## Yağış və qız

Sərin hava… Yağış yenicə yağıb qurtarmışdı. Ayaqlarının altındakı yarpaqların xışıltısı səssizliyi pozurdu. Gənc qız yavaş-yavaş oturacağa yaxınlaşdı. Yerində dayanıb ətrafa nəzər yetirdi. Heç kəs yox idi. Səssizcə əyləşdi. Dərin xəyallara daldı. Xəfif külək gənc qızın saçları arasından süzüldükcə, yağışdan nəm olmuş saçındakı damcılar yerə düşürdü.

Gənc qız səssizcə xəyallara dalmışdı… BİRDƏN çox şiddətli şəkildə göy guruldadı. Şimşək çaxdı. Gecənin aydınlığı bir anlıq sanki şimşəyin işığıyla mübarizəyə girmişdi. Və sonda yenə də ətraf qaranlığa büründü. Yağış yağmağa başladı. Güclü şəkildə. Amma gənc qız sanki islanmırdı, yağışı hiss edirdi… Hər damlasını… Və yavaş-yavaş yağış kəsməyə başlayırdı. Gənc qız sanki öz xəyyallarını yaşayırdı bu yağışla. Şiddətlə başlamış sevgisi, yavaş-yavaş tükənmişdi. Necə yağışın təsirindən buludlar yox olmuşdusa, sevginin təsirindən də tükənmişdi… Və yağış tam kəsdi. Havada heç bir bulud qalmamışdı… Gənc qız ayağa qalxdı. Gəldiyi tərəfə də

yavaş-yavaş addımladı. Sevgisi kimi, yağış da bitmişdi… Gənc qız gözdən itdi.Yağış yağdı və bitdi… AMMA BU O DEMƏK DEYİLDi Kİ, YENƏ DƏ YAĞIŞ YAĞMAYACAQ!

## Mənfidən müsbətə

Əgər biri sənin haqqında mənfi düşünürsə, artıq gecikmisən deməkdir. Boş yerə onu qazanmaq üçün çalışmağa dəyməz. Sənin haqqında neytral düşüncələrə sahib olanlara vaxt və enerjini sərf etmək lazımdır. Neytralı müsbətə çevirmək daha asandır, nəinki mənfini müsbətə. İtirdiklərini artıq itirmisəndir. İndi mübarizə aparıb yenilərini qazanmalısan. Amma qazanmaq da əsas şərt deyil. Gərək daima onlarla münasibətini yaxşı edəsən, əlaqədə olasan, xoşniyyətli olduğunu qarşındakına inandırasan. Əks təqdirdə neytralı müsbət edim deyərkən, mənfi edərsən. Sənə dost daima lazımdır. Yaxşı dost. Dostluğu bir kənara qoy. Sənə hörmət edənlərin, səmimi münasibətdə olduqlarının sayı nə qədər çox olsa, o qədər yaxşı. Mənfidən qaç, müsbətə doğru. Amma ən əsası ehtiyatlı ol. İtirmə. İtirdiklərini geri qazana bilməyəcəksən. Özünü ağıllı göstərmək əsl ağılsızlıqdı. Boş yerə sonra "kaş ki"lərlə yaşama, peşmanlığın faydası yox. Vaxtında əlaqəni qur, dostluqları gücləndir. Hər kəsə hörmət et. Bir də ki, ən əsası, "yenilərini qazanım" dü-

şüncəsində ol, amma köhnələri də unutma. Bacaracaqsan. Çünki bu dünyada əslində hər şey asandı. Sadəcə üsulunu bilməyənə çətin gəlir hər şey. İlk addım daima çətindir əlbət. Amma sonrası asan. Haydi, uğur olsun! Bol, səmimi, mehriban və xeyirli dostluqlara...

## Son gülüş

Səssizcə gözlərimin içinə baxıb gülürdü. İlk dəfə gördüm bir insana gülməyin heç yaraşmadığını. Gülüşündə kədərini, hüznünü, kin və nifrətini gizlədə bilməmişdi. Bacarmamışdı. Bütün hisslər açıq-aşkar ortada idi. Onun gülüşü... Ucadan gülürdü. Yox, bu təbəssüm deyildi, daha dərin, daha ağrılı, daha əzabverici. Doya-doya güldü, ağlamsıl səslə, sonuncu dəfə.

Əlində silah vardı. Mənəmi, özünəmi tuşlamışdı? Bilmirəm. Niyyəti nə idi? Böyük ehtimal məni öldürəcəkdi. Sonumun yaxın olduğunu hiss etdim. Sonuncu dəfə gözlərimin içinə baxdı. Atəş açdı. Səsdən diksinərək gözlərimi bərk-bərk yumdum. Saniyələr dəqiqələrdən yavaş gedirdi sanki. Bir istilik, ağrı, nəsə bir hiss... Heç nə hiss etmədim. Sanki ruhum bədənimdən ayrılmışdı. Sanki artıq ölmüşdüm.

Gözlərimi açdım. Yerdə yatan cansız bədənini gördüm. Başı qanlar içində idi. Öldürmüşdü... Həm özünü, həm də öz timsalında məni. İkiqat qisas almışdı sanki.

Bilmirəm, bilmirəm.

Və həm də bilmirdim. Bilmirdim ki, insan yaşayarkən belə, yaşadığını sanarkən belə, ölmüş ola, ölə bilərmiş. Bunun bir adı var, yaşayan ölü.

Ölmüsəndir, yoxdur qəlbin, sən sevəmməzsən!
Ölmüsəndir, kordur gözlərin, sən görəmməzsən!
Ölmüsəndir, laldır dilin, sən danışammazsan!
Ölmüsəndir, kardır qulaqların, sən eşidəmməzsən!
Ölmüsəndir, yoxdur hisslərin, sən güləmməzsən!

Başım hərləndi, yıxıldım. Üzüm onun qanına bulaşdı. Güldüm! Son gülüşüm oldu. Və mən də öldüm...

## Komediya janrında faciə (tragikomediya)

Gəldi. Daxil oldu otağa. Gülür... Gülür... Ürəkdən gülür. Baxır ətrafa. İnsanlar... Hamısına gülür. Özünə də gülür əlbət. Amma niyə gülür? Gülür, çünki o insan adlandırdıqlarımız, insanlıqdan başqa hər şeylə məşğuldurlar. Bax onun düşüncəsi budur. Və o da insandır.

Düşünür... Dünənini, sabahını. Baxdı, gördü, anlamsız imiş həm gələcək, həm keçmiş. Lazım imiş yazşamaq elə bu anı. Düşündü. Qərar verdi. Unutdu keçmişi. Önəmsizləşdi gələcəyi. O, dərk etdi. Yaşamaq lazım imiş elə bu anı... Yaşadı.

Gülürdü. Hər kəs ona baxaraq gülməyə başladı. Hər kəs gülür indi. Hər kəsin üzündə təbəssüm. Orada hər yaşda insan var. Yaşlar artdıqca gülüşlər də saxtalaşırdı.

Və başladı saymağa... 1, 2, 3, ... Sayırdı... Nəyi? Nə məqsədlə? Bilmirdi. Sadəcə sayırdı. Və gülürdü. Bəlkə də saxta gülüşləri sayırdı, ya da o gülüşlər kimi saxta ayların boş keçmiş günlərini sayırdı. Amma boş... Saymaqla bitirməkmi olar?

Və hər kəs gülürdü. Və gülərək sanki əzab çəkirdilər. Sanki bu əzabın şiddəti həm onlara həzz verir, həm də məhv edir. Məhv olurdular. Gülürdülər... Yüksək səslə, ürəkdən...

Bu bir komediya idi. Faciə dadında komediya. Bu komediya idi, hər kəs gülür, gülərək məhv olurdu. Bu bir komediya janrında faciə idi...

Bəzən gülmək, ağlamaqdan da əzabvericidir. Bəzən gülmək, xoşbəxtlikdən yox, əksinə, kədərdən, ağrıdan gülmək, inanın, xoşbəxtin gülüşündən belə həqiqidir. Gülmək bir faciədir...

## Gözlərində gülüş

Onun gözlərində görünürdü ümidlər. Onun gözləri gülürdü. Sanki uşaq idi. Sevinirdi. Gülürdü. Xoşbəxt idi sanki. Bəlkə də "sanki" yox, elə həqiqətən xoşbəxt idi... Bunu hiss edirdi. Üzündə sevinc var idi. Gözlərində gülüş... Gülürdü. Bu ona yaraşırdı. O, bir anlıq unutdu bütün keçmişini. O, bir anlıq unutdu bütün yalanları, günahları, boşa keçən zamanı, məhv olan ümidlərini. Unutdu hər şeyi. Unutdu. Sadəcə təbəssüm, gözlərində gülüş. Gözləri gülürdü.

Başqa biri vardı. Heç gülməyi bacara bilməyən biri. Kaş bircə dəfə də olsa gülə bilsəydi, ölməmişdən öncə gülə bilsəydi, kaş...

Hər bir insanın ehtiyacı vardır bəlkə də bircə dəfə belə olsun gülməyə. Ürəkdən... Sevincdən... Hər şeyi unudaraq...

Gözləri gülməlidir bəlkə də insanın əslində. Bəli, bəli. Olmalıdır gözlərində gülüş.

## İtirmək, yoxsa qazanmaq?

Səhər-səhər ağlıma yaxşı bir fikir gəldi. Dərsə piyada gedəcəkdim. Yolum o qədər də uzaq deyildi. Piyada 40 dəqiqəyə çataram. Elə bu qərarımla da evdən çıxdım. Səkiylə, ətrafı seyr edərək yolumu gedirdim. Yolumun üzərində bir-iki park yerləşir. Skamyalarda oturmuş insanlar... Bir mənzərə diqqətimi çox çəkdi. Parkın yaxınlığında bir bina vardı. İkinci mərtəbədə eyvana çıxmış bir kişi sevinclə ətrafa baxırdı. Əlində tutduğu siqaretindən çıxan tüstü ətrafa yayılırdı. Bu adam kim idi? Nəyə sevinirdi?

Tam on il öncə qardaşı qəzaya düşmüş və həyatını itirmişdi. Heç bir ay keçməmişdi ki, anası ürək xəstəliyindən vəfat etdi. Atası kasıb idi, fəhlə işləyirdi. Atasının yanında işləyib ona kömək edirdi. Güclə dolanırdılar. Bu səbəbdən heç təhsil belə almamışdı. Qonşuluqda yaşayan Azərbaycan dili müəllimi ona yazmağı və oxumağı öyrətmişdi. Getdikcə hər şey daha da pis olurdu. Anasının vəfatından üç ay keçmişdi ki, atasını da itirdi. Hələ on beş yaxşı var idi. Özü orda-burda fəhləlik edir, qazet satır, maşın yuyur

pul qazanmağa çalışırdı. Atasının ölümündən sonra kirayə qaldıqları evdən də qovulmuşdu.Hər şey çox pis vəziyyətdə idi. Artıq küçələrdə yaşayır, gecələr səkilərdə, parklarda yatırdı. Hətta bəzən günlərlə heç nə yeyə bilmirdi. Və üç ilə yaxın belə keçdi. Amma yeddi il sonra, hal-hazırda yeni almış olduğu üç otaqlı mənzilində həyat yoldaşı və üç övladı ilə bərabər yaşayır. Ərzaq mağazasının sahibidir. Maşını da var. Övladları da rahat bir şəkildə təhsil almaqdadır. Və bu səhər, sevinclə, gülərək siqaretini tüstülədirdi... Bəs bu necə baş verdi?

Tam yeddi il öncə, bir dəfə parkda skamyaların birində yenicə yuxudan oyanıb ətrafı seyr edirdi. Biraz kənarda, başqa bir skamyada gənc bir oğlan kitab oxuyurdu. Təsirləndi. Bir kitab oxumaq qərarına gəldi. Sadəcə bircə dəfə özünü sınayacaqdı. Uşaqkən yazıb-oxumağı öyrənmişdi. İki-üç gün qazandığı pulu saxlayıb kitab alacaqdı. Və belə də etdi. Artıq üç gün sonra əlində satış qaydaları haqqında kitab var idi. Oxudu, diqqətlə və dəfələrlə. Sonra bir marketdə satıcı olaraq işə girdi. Sonra yavaş-yavaş bu sahədə bilik və bacarıqlarını işlədərək irəlilədi. Və son nəticədə indi olduğu yerdədir.

Mən yoluma davam etməkdə idim. Ətrafı seyr edir, asta-asta parkın içində addımlayır, akademiyaya tərəf gedirdim. Bu səfər başqa bir mənzərənin şahidi oldum. Parkda skamyaların birində orta yaşlı bir kişi yatırdı. Yanında pivə şüşəsi olduğundan gecə içib sərxoş hala düşdükdən sonra yuxuya getdiyini təxmin etdim. Bu adam kim idi? Niyə burada yatırdı?

Üç il əvvəl atasının vəfatından sonra miras buna qalmışdı. Bu miras iki evdən, maşından və kiçik bir marketdən ibarət idi. Hər şey çox yaxşı ola bilərdi. Amma olmadı. İçkiyə, qumara başladı. Anasının vəfatı və ardından həyat yoldaşının uşaqları da götürüb atası evinə qayıtmasından sonra tək-tənha qaldı. Sonra yavaş-yavaş qumarda evini, maşınını, pulunu və digər hər şeyini itirdi. İndi dünən gecəki sərxoş, parkda skamyada oturub. Yenicə yuxudan oyanmışdı.

Düşünürəm, həyat necə də qəribədir. Kimlərsə itirərkən, kimlərsə qazanır. İtirən də, qazanan da bizik. İtirdiklərimizin də, qazandıqlarımızın da bəzi hissəsi bizdən asılı deyil. Amma digər bəzi şeylər bizdən asılıdır. Bizdən asılı olan hissəni yaxşı dəyərləndirmək lazımdır.

Kimisi ağılsızlıq ucbatından itirər, kimisi ağlını işlədib qazanar.

Belə bir dua vardır: “Allahım, mənə dəyişdirə bilməyəcəyim şeyləri qəbul etmək üçün SƏBR, dəyişdirə biləcəyim şeyləri dəyişdirmək üçün CƏSARƏT, aradakı fərqi görə bilmək üçün MÜDRİKLİK bəxş et!”

## Qaranlıq

Qaranlıq bir otaq sanki burası. Mənim qaranlığım günəşdən uzaq, sadəcə səssizlik. Burada gözlərim qapalı, gördüyümsə hər zaman eyni. Qayalıqlar, intihar səhnəsi. Niyə beynimdən çıxmır? Səssizliklə danışdım səssizcə... Deyiləsi çox sözüm vardı deyə susdum. Hüznü ifadə edərmi sözlər, bilmirəm. Amma əslində heç səbəb də yoxdur. Gözümün qarşısında rəngli dünya. Niyə gözümü yumarkən burada eyni səhnə görürəm? Niyə beynimdən çıxmır bu tamaşa? Nə zaman səssizlik məni tərk edəcək? Nə zaman səhnəcik unudulacaq? Nə zaman qurtulacaq ruhum intihardan? Bilmirəm...

Qaranlıq var ətrafda, gözlərimi qamaşdıracaq dərəcədə...

## Xəyallarını yaşa

Mənim xəyallarım var, yavaş-yavaş reallaşdırıram. Sənin də xəyalların var, sadəcə uzaqdan baxırsan. Bilirsən axı, Peyğəmbər olmağı xəyal etsən, olmaz. Bilirsən axı, ölüləri geri qaytarmaq olmaz. Niyə keçmişdə olanları yeni variantlarla xəyal edirsən? Niyə gələcəyə getmirsən? Bezmədin keçmişdə yaşamaqdan? Bezmədin əzab çəkməkdən? Bezmədin ağlamaqdan? Bezmədin boş-boş xəyallar qurub, reallaşmadığını hər hiss edişində ölüb dirilməkdən,bezmədin? Bir az realist ol. Bir az ümidli ol. Gələcəyə doğru. İrəli. Gələcək bir gün mütləq gələcək! Unutma! Gülümsə! İnan! Və xəyal qur! Amma keçmişin yox, gələcəyin xəyalı. Əgər qurduğun xəyallara inansan, reallaşacaq. Bir gün xəyal qursan, başqa bir gün xəyalını yaşayacaqsan. Tək lazım olan inanmaqdı. Necə olacağı heç önəmli deyil. Bəlkə həmin anında sənə mümkünsüz kimi görünə bilər. Düz baxsan sadəcə qapalı qapını görərsən. Sən ətrafa bax, çox açıq qapılar var. Xəyal et, inan və xəyalını yaşa! Uğurlar!

## Kimin xəyalı?

Hə, bir də gecikmək vardır. Uşaq çatmış 9-10 yaşına. Sən hələ də öyrənməmisən onun bacarıqlarını. Bəlkə də çoxdan yox olub gedibdir. Batıbdır bütün xəyallar. Gecikmisən. Vaxtında önəmsəməmisən. Və nəticədə o kiçik uşağın bacarıqlarından, qabiliyyətlərindən xəbərsiz qalmısan.

Və sonra sənin öz xəyalların keçər irəliyə. Sən uşaqkən edə bilmədiklərini o kiçik uşağa etdirməyə başlayarsan. Əvvəlcə uşaq sözünə qulaq asar. Amma zamanla getdiyi bu yolda yeriyəcək ayaqların onda olmadığını anlar uşaq. Başa düşər ki, bacarmaz. Heç qabiliyyəti yoxdur zorla valideyni tərəfindən yönləndirildiyi bu işgəncəyə. Amma sən valideyn olaraq yenə də niyətindən əl çəkməzsən. Üstünə gedərsən. "Canı çıxsa da bunu edəcək" - deyərsən. Və uşağa verilən mənəvi əzablar…

Bir düşün. Bu uşağının xəyalıdır, yoxsa sənin? Anlamazsan. Anlamazsan ki, sənin xəyallarını o kiçik uşaq reallaşdırmağa borclu deyil!

## Üzlərin sözü

Zaman axır. Axır, amma içində kiçik qəribəliklər yaradaraq. Necə ki, dəniz dalğalarıyla başını qatır. Bax eləcə zaman da kiçik təkrarlarla sonsuz burulğana bənzəyir. Eynidi. Xırda dəyişikliklərdən başqa. Bəs o dəyişik olan nədir? Biz.

Bu bir tamaşadır. Kiçik səhnə əsəri. Yazılı mətn. Sözlər hazır. Dəyişən aktyorlardı. Dəyişən məkanlardı. Dəyişən saatlardı. Sözlər eynidi. Sanki eyni oyun təkrarlanır.

Bəzən diqqətlə baxsaq, həmin təkrarların qurbanına çevrildiyimizi görərik. Bu belə də olmalıdır. Amma qəribə tərəfi bilirsiz nədir? Bizim həyatımızın da bir təkrar döngüsünə hədər olması. Bizim eyni sözləri fərqli üzlərə deməyimiz. Fərqli üzlərdən eyni sözləri eşitməyimiz. Üzlər çox, söz tək.

Bəzən düşünürəm ki, yaddaşımmı silinib, yoxsa mənmi bu təkrarlar döngüsündə ürəkbulanmasına düçar olmuşam? Bu qarışıqlıq nəyin nəsidir? Gözlərimi yumub ruhumu zamana buraxıram...

Azad dərs çıxışı Jaləylə söhbət edərək gedir İçəri şəhərə. Danışırlar, danışırlar, danışırlar. Bir dejavu hissi yaşayır Azad. Amma nə qədər çalışa da xatırlaya bilmir bu hadisəni nəzaman yaşadığını. Xatırlaya bilməz də. Zaman icazə vermir iki il öncə Nigarla hazırlıqdan çıxıb evə gedərkən danışdığı macərasını xatırlamağa. Çünki macəra eyni olaraq qalıb. Dəyişən zaman, üz...

Bir qarışıqlıq var. Çıxa bilmirəm bu labirintdən. Çıxmaq da istəmirəm. Bilinməzlik daha gözəldir. Ama bu naməlumluq nə ki? Bax. Bəzən Azad Jaləylə danışanda elə hiss edir ki, Nigarla danışır. Çünki eyni işi görür. Hər iki şəxsə daima macəralarını, gələcək xəyallarını danışıb, danışır. Və fərqinə vara bilmir ki, iki ildi Nigarla danışmır. Və bir gün Nigar mesaj yazar ki, "Niyə itirib axtarmırsan?" Bax elə o an Azad anlayar ki, labirintin içində itib. Axı ona gəlir ki ,hələ də Nigara xəyallarını danışır. Yoxsa bu Jalə idi?.

Belə və başqa hadisələr olur. İnsanları ikiləşdiririk. Eyni cür davranırıq iki fərqli insana. Və ilkiylə hələ də münasibətdə olduğumuzu sanarıq ikincinin əvəzinə. Və belə ikiliklər çoxdur həyatımızda. Günahkar kimdir? Kim üzr istəməlidir?

Unutqan olduğumuzu anlayacağıq? Yox, ikiləş-dirilənlər eyni bir şəxs deyil axı. Yox. Biz dalğalarda boğulmuşuq...

Bu təkrarlar nəyə, kimə gərəkdir? Niyə var? Səbəbini mən də bilmirəm. Bir labirintə itdiyimi sanıram. Və ya bir unutqanlıq. Bir oxşarlıq, yoxsa bir illüziya? Bilmirəm.

Mən.. Mən.. Üzr istəyirəm.

## Düşün

Hazır ol, xəyallarınla rəqs edəcəyik.

Zamanın donduğunu düşün. Havanın donduğunu düşün. Ya da boş ver zaman axıb getsin, külək əssin. Küləkləri düşün. Küləyin əsməsini, qulağına gələn səsi, yarpaqları düşün. Küləyin rəqsinə qoşulan kiçik, saralmış yarpaqları düşün. Rəqs edən yarpaqların bir zamanlar asılı olduğu budaqları düşün. Ağacı düşün. Böyüklüyünü, qüdrətini düşün. Bir də kölgəsini düşün. Kölgəsində oturan gənci düşün. Üzündəki təbəssümü düşün. Təbəssüm bir nəticə isə, sən səbəbi düşün. Daxil ol beynin içinə. Səyahət et neyronlar arasında. Hüceyrələrə toxun. Rənglərini gör. Diqqətlə bax, orada nə var? Kiçik bir xatirə tapdım. Satın almaq istədiyin topu necə kədər və istək qarışıqlı bir duyğuyla izlədiyini düşün. Topu düşün. O topu alan balaca uşağı düşün. Düşün ki, əlindəki topu gətirir və digər məhəllə uşaqları ilə futbol oynayırlar. Top gedir bir pəncərəyə dəyir, sınır. Otağa dolan şüşə qırıntılarını təmizləyən

ananı düşün. Necə də parıldayır qırıntılar yaşıl palazın üstündə... Palaz demişkən, bir onun naxışlarını düşün, üzərindəki göy butaları. Bilirsən, o kimin əl əməyinin işidir? Qoca bir qadın var idi, aşağı məhəllədə yaşayan, 45 il öncə o toxumuşdu. Bir düşün barmaqlarının necə də sürətlə iplərin arasında rəqs etdiyini. Və getdikcə sürət artır, artır, artır... Sən də sürətlən. İpi düşün, istehsalçını düşün. Firma, şirkət, obyekt, müəssisə. Uzaqlarda. Dağ, qaya torpaq, qum. Çox uzaqlarda. Səhralığa bənzər bir yerdədi. Oranı düşün. Qumu düşün. Bir də çimərliyi. Yox, elə sən çayı düşün. Kür çayını... Hər səhər çayı seyr edən gənc qızı düşün. Körpüdən onu izlədiyini düşün. Küləyin saçlarının arasından sivişib necə qaçdığını, yarpaqlarla rəqs etdiyini... Bir sarı yarpaq düşərdi çayın üzərinə, əgər donsaydı zaman? Zamanın donduğunu düşün.

Musiqi bitdi, yerinizə əyləşə bilərsiniz. Təşəkkürlər.

## Dumansızam

Mən xoşbəxtliyi dumanda bildim.

Əslində hər şey gözlərlə başladı. O gözlər ki, gördü. Bax elə o zaman başladı. Sadəcə gördüyü zaman. Başqalarının əzablarını, kədərini, göz yaşlarını, qorxusunu, nifrətini, yalanını gördüyü zaman. O zaman hiss etdim bir yerlərdə qırıldı bir şeylər. Özü də necə... Elə qırıldı ki, qırıntılar əlimi kəsir. Tək əlimi yox. Bütün bədənim kəsik-kəsik. Görə bilmirəm amma izləri. Görə bilmirəm hardadı kəsik, hansı kəsikdən qan axır? Görə bilmirəm deyə qarşısını da ala bilmirəm.

Elə bir qırıldı ki... Bütün həyat mənasızlaşdı. Bütün həyat dəyişdi. Bir anlıq bütün varlığınla qəbul edərsən onu. Heç kimi, heç nəyi, heç bir şeyi düşünməzsən. Təslim olarsan. Məğlub olduğunu qəbul edərsən. Amma yarış bitməz. Hələ bu harasıdı?! Hər şey indi başlayır. Kiçik bir qar dənəciyi böyük bir çığa çevrilib və elə tən ortasında sənsən. Əzilirsən. Ağırlıq. O qədər böyük ağırlıq ki, gücün çatmır. Amma yox, bu yolda ölüm yoxdu. Ölüm ən gözəl hədiyyə olmalı

idi yəqin ki, paxılcasına gizlədildi. Görən hədiyyəmizdən nə çıxacaq? Bəzi xəyalların mümkünsüzkən reallaşdığını, bəzilərinsə çox, amma həqiqətən çox sadə, adi şeylərə görə reallaşmaması. Bax bu. Belə.

Əllərim titrəyir. Soyuqdan yoxsa həyəcandan? Bəlkə qorxudan? Sözlər... Sözlər o qədər tez dəyərini itirdi ki... Əslində hər şey çox gözəl başlamışdı. "Öyrədəcəm" - dedi, kiçik bir uşaq. "Bütün bildiklərimi, bölüşəcəm" - dedi. Başladı. Yazdı. Bütün varlığını sözlərə keçirib beynini qurban verdi. Sonra? Sonra keçirik ikinci misraya. Anladı ki, bir qəpiklik önəmi yoxdu yazdıqlarının. Korlar dünyasındadı. Hər kəsin gözü var, hər kəs görür. Və hər kəsin gözü öz həyat xəttinin sındığı nöqtəni görür. Artıq heç bir gözün ehtiyacı yox sözlərə.

Bax elə o zaman o uşaq dəyişdirdi xəttini. "Bəlkə" - dedi. Bəlkə... Bir ovuc istilik axtararcasına... Bəlkə, hisslər hər şeyi dəyişdirər? O zaman hisslərə inandı. Və artıq sözlərində məna yox idi, sadəcə hisslər var idi. Hisslər... Elə hisslər ki, ilk öncə özü bürünürdü bu əzaba. Sonra sözlərə keçirib kağıza həkk edirdi. Baxdı... Baxdı və

gördü. Gördü ki, insanlar yenə elə eyni səbəbdən, hisslərdən də yoxsundular. Hiss etmirlər. Həm kor, həm də hissizdilər. "Yaxşı" - dedi. Və ən bərbad yolu seçdi. Ən sonuncu yolu.

Atıb bütün sözləri seçdi deyilməyənləri. Deyilənlər nə fayda verdi ki?! Heç bilirsənmi insanlar nədən yazır? Əslində özlərindən. İnan ki özlərindən. İlk yaratdığı bütün obrazlar özü olar. Öz xəyallarını reallaşdırar. Öz reallıqlarını yaradarlar. Sonra anladıqda ki heç kimin vecinə deyilsən, o zaman dəyişər xətt. Və sadəcə üç-beş obraz yaradıb salarsan ortaya. Hekayələr uydurarsan, ya da şeirlər. Amma yenə də, yenə də o zibil xasiyyətindən əl çəkməzsən. Ortalığa öz hisslərini səpərsən, ya da xatirlələrini. Bir obrazın avtobusun sonuncu oturacağında oturub başını şüşəyə yapışdırar, sənin kimi. Heç kim bilməz. Başqa bir obrazın dəli kimi bir şəhər arzulayar, amma o şəhərin qarını görmək ona nəsib olmaz. Necə ki, sənin bir qış günü uzaq düşdüyün o şəhərdən... Bir obrazın qərar verər. Gedər sevdiyinin gözünün içinə baxar. Tam sevdiyini demək istəyərkən, qız "dostluq"-larının yaxşı getmədiyini, əlaqələrini kəsmək istədiyini deyər. Ora, ortaya bir hiss tulluyarsan, heç mövzuyla əlaqəsi olmaz, amma

bir xəstəlikdə, o yaxını gördükdə hiss etdiyin boşluğu ifadə edərsən. Və ya başqa bir obrazını öldürərsən, acı çəkdirərsən, ya da xoşbəxt edib, bir iki xəyalını ona verərsən. Üç şəhərdən danışarsan, hər şəhərdə bir səfil. Əslində səfilliyindən gedə bilmədiyin şəhərlər olar onlar. Və ya başqa cür. Sən özünü gizlədərsən orada. Tam açıq olanda gördülərmi, belə gizlini də görsünlər?!

Bəs kim görəcək deyilməyənləri? Elə bir musiqiyə qulaq asarsan, deyər ki, "Geri dönəcəm", deyər ki, "Mən qayıdacam", deyər ki, "yenidən gələcəm". O sözləriylə ümid verər sənə. Ya da bir sevinc . Amma bir bax deyə bilmədiklərinə. Bax gör nə vaxt getdi? Bəlkə də çoxdan gedib. Sənin gördüyün boşluğun qara rəngi...

Soyuq daha da ürküdücü gəlir. Dumanın içində nə var görən? Yazmağın da mənası yoxdur artıq. Qaçmaq lazımdır. Ya da xatırlamaq lazımdır keçmişi. Artıq qaçmış olduğunu. Hara qaçırsan qaç, özündən qaça bilməyəcəksən. Amma o kiçik uşaq qaçdı. Özündən qaçdı. Özü də elə bir qaçdı ki, itib qaldı, azdı bir küçədə, bir küncdə. Gəlib tapa bilmədi özünü yenidən. Tapmaq istəmirdi bəlkə də... Bəlkə elə bütün uydurma obrazlar

özündən qaçmaq üçün imiş... Və beş il sonra yuxudan oyandıqda, anladı ki, elə ilk günkü yerdədi.

Tüsdüm dumana qarışanda çatacam ona.

# MÜNDƏRİCAT

Nar dənələri ........................................................ 3
Baxdım uzaqlardan səmalara… ................................. 5
Kədərin təbəssümü ................................................ 6
Varlıqla yoxluğun ayrılığı ......................................... 8
Tərk edilən yer ...................................................... 10
Dəyişdirə bilmədiyimiz həyat ................................. 12
Tapdım... .............................................................. 15
Dalğavari həyat ..................................................... 17
Bilinməzlikdən bezmiş insan ................................... 20
Şahmat oyunum ..................................................... 23
Təklik, tənhalıq və kimsəsizlik ................................. 25
İntihar edək mi? .................................................... 27
Hədəf ulduzu ......................................................... 31
Səssiz külək ........................................................... 34
O dəlidir ................................................................ 37
Xoşbəxtliyin yeri ..................................................... 39
Gəl birlikdə uçaq ................................................... 41

Bir səhifəlik qızıl gül ətri........................................ 44
Oyanın! ........................................................................ 47
İki kəliməlik həyatlar................................................ 49
Fərqli bir oyun........................................................ 51
Bu gecə yuxuma qar yağacaq... ................................ 54
Bumeranq .................................................................. 58
Tık-tık ....................................................................... 61
Onun… ...................................................................... 64
Günəşin kölgəsi olmur .............................................. 66
Sonsuz əzab .............................................................. 69
Yağış və qız................................................................ 72
Mənfidən müsbətə .................................................... 74
Son gülüş................................................................... 76
Komediya janrında faciə (tragikomediya)................. 78
Gözlərində gülüş ........................................................ 80
İtirmək, yoxsa qazanmaq? ........................................ 81
Qaranlıq .................................................................... 85
Xəyallarını yaşa .......................................................... 86
Kimin xəyalı?............................................................. 87

Üzlərin sözü .......................................................... 88
Düşün................................................................ 91
Dumansızam .......................................................... 93

**Muzafferus**
*Müzəffər Paşazadə*
Nar dənələri

---

Çapa imzalanıb: 10.11.2016
Formatı 70x100 1/32,
Fiziki çap vərəqi 3.13
Tiraj 150

Bakı, Azərbaycan